**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNFORMASİYA SAHƏSİNDƏ ƏSAS İNSAN HÜQUQ VƏ AZADLIQLARININ TƏMİNATININ BEYNƏLXALQ VƏ MİLLİ-HÜQUQİ PROBLEMLƏRİ

İxtisas: 5614.01 – "İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ"

Elm sahəsi: Hüquq


İddiaçı: **Gülnaz Aydın qızı Rzayeva**


Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında yerinə yetirilmişdir.

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Anatolii Trofimoviç Komziuk**

Hüquq elmləri doktoru, professor
**Yuriy Pavloviç Burilo**

Hüquq elmləri doktoru, professor
**Yulia Oleksandrivna Legeza**

Hüquq elmləri doktoru, professor
**Nataliia Yuriivna Zadyraka**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 27 oktyabr 2023-cü il tarixli 3-50/3-1-1-235/2023 saylı əmri əsasında Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BED 2.44 Birdəfəlik Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent

______________ **Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent

______________ **Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, professor

______________ **Əmir İbrahim oğlu Əliyev**

BAKI DÖVLƏT UNİVERSİTETİ
ELMİ KATİB

29.04.2024

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İdarəetmənin qanunauyğunluğunun və demokratikliyinin təmin edilməsi üçün əsas tələblərdən biri olan idarəetmədə aşkarlıq prinsipinin sadəcə olaraq tanınması bu prinsipin tətbiqi üçün kifayət etmir. Bu prinsipin gözlənilən funksiya və məqsədlərini yerinə yetirməsi üçün praktikada tətbiq edilə biləcək qaydalar və alətlər müəyyənləşdirilməlidir. Bu kontekstdə idarəetmədə aşkarlığın ən mühüm sütunlarından biri informasiya sahəsində hüquq və azadlıqların təminatıdır.

Azərbaycan Respublikasında informasiya cəmiyyəti quruculuğuna başlandıqdan sonra ölkə ərazisində açıq hökumətin təşviqi üzrə həyata keçirilən bütün layihələrdə məlumat azadlığının təmin edilməsinə daha çox diqqət yetirilir. Çünki qlobal informasiya cəmiyyətinin və informasiya məkanının formalaşdığı bir şəraitdə informasiya hüquqları təmin olunmayan cəmiyyət üzvünün aktivliyindən danışmaq qeyri-mümkün olar. Təsadüfi deyil ki, informasiya cəmiyyəti quruculuğunu əks etdirən bütün beynəlxalq mənbələr informasiya və biliklərin əlyetərliyini prioritet istiqamətlər və ya əsas məqsədlər sırasında bəyan edir. Hələ 2000-ci ildə Qlobal İnformasiya Cəmiyyətinin Okinava Xartiyasında hər kəs üçün açıq olan informasiya cəmiyyətindən bəhs olunurdu. İnformasiya cəmiyyətinə doğru: prinsiplər, strategiyalar, prioritetlər adlı 2002-ci il Buxarest Bəyannaməsi informasiya və biliklərin əlyetərliyini, eləcə də münasib qiymətlərlə universal əlyetərliyin təşviqini əsas prinsiplərdən biri kimi nəzərdə tuturdu. 2003-cü ildə Cenevrədə İnformasiya Cəmiyyəti Məsələləri üzrə Ümumdünya Sammitində qəbul edilmiş Prinsiplər Bəyannaməsində isə informasiya əldə etmək hüququnun təmin olunması məqsədilə müxtəlif prinsiplər əks olunmuş və Fəaliyyət Planında həmin prinsiplərin icrası mexanizmləri müəyyən olunmuşdur. Qeyd edilən beynəlxalq normalar milli hüquqda rəhbər tutulur və informasiya sahəsində hüquq və azadlıqların maneəsiz realizəsinə geniş imkanlar açır. Lakin bununla yanaşı, informasiya sahəsinin kompleksliyindən və rəqəmsallaşma proseslərinin dinamikliyindən irəli gələrək, informasiya sahəsində hüquq və azadlıqların təminatı üzrə bir sıra

problemlər mövcuddur ki, bu problemlər hüquqi tənzimetmədə mövcud olan və dövrün tələbinə cavab verməyən çatışmazlıqlardan irəli gəlir.

Hal-hazırda demək olar ki, bütün dünya dövlətləri insan hüquqları institutunu qəbul edir və öz dövlət siyasətində insan hüquq və azadlıqlarının təminatını rəhbər tutur. Təsadüfi deyil ki, əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipi beynəlxalq-hüquqi tənzimetmənin, eləcə də milli qanunvericilik aktlarının təməlini təşkil edir. Qlobal informasiya cəmiyyətinin formalaşması insan hüquqlarına da öz təsirini göstərməyə bilməzdi. Hər kəs üçün açıq olan belə bir cəmiyyət insan hüquqları institutunun müsbət istiqamətdə təkamülünə gətirib çıxarmışdır. Hətta bir çox tədqiqatçılar yalnız informasiya cəmiyyəti fiziki imkanlarından asılı olmayaraq, hər bir kəsin əsas hüquq və azadlıqlarını təmin etmək iqtidarındadır, deyərək, bu barədə mövqelərini əsaslandırırlar[1].

Yeni texnologiyaların inkişafı insan hüquqlarına da öz əhəmiyytəli təsirini göstərir. Belə təsir yeni onlayn hüquqlar yaradırmı? – Qlobal informasiya cəmiyyətinin əvvəlki dövrlərində ənənəvi hüquqların onlayn qaydada da realizəsinin mümkün olması qeyd olunurdu. Məsələn, 2012-ci ildə (və yenidən 2014 və 2016-cı illərdə) BMT İnsan Hüquqları Şurası insanların oflayn olduğu eyni hüquqların da onlayn olaraq qorunması lazım olduğunu[2] vurğulayaraq, dolayısı ilə yeni texnotron cəmiyyətin yeni hüquqlar yaratmadığını müəyyənləşdirirdi. Lakin nəzərə almalıyıq ki, rəqəmsal dünyada fərdi məlumatların konfidensiallığını tənzimləyən milli qanunlar tez-tez texnologiyaya uymur və konfidensiallığı onlayn olaraq qoruya bilməz. Ona görə də rəqəmsallaşmanın insan hüquqlarına təsiri beynəlxalq və milli-hüquqi çərçivədə ətraflı təhlil olunmalı, yeni

---

[1] Məhərrəmova, T. İnformasiya cəmiyyəti daha intellektual cəmiyyətdir // Kaspi, 2010, 23 fevral, s. 8. [Elektron resurs]. URL: http://anl.az/down/meqale/kaspi_az/2010/fevral/108222.htm [son daxil olma tarixi: 12.12.2023]

[2] The Human Rights Council. The promotion, protection and enjoyment of human rights on the Internet. [Electronic resource]. URL: https://www.article19.org/data/files/Internet_Statement_Adopted.pdf [son daxil olma tarixi: 12.12.2023]

hüquq və azadlıqların konkret təsbiti və qorunması ilə bağlı məsələlər öz həllini tapmalıdır. Bu baxımdan, informasiya sahəsində hüquq və azadlıqların beynəlxalq və milli hüquqi təminat mexanizmlərinin tədqiqi dövrün aktual tədqiqat mövzularındandır.

Qeyd etmək lazımdır ki, respublikamızda informasiya hüququ yeni sahə olduğu üçün ifadə azadlığı ilə bağlı tədqiqatlar aparılsa da, kompleks formada informasiya hüquq və azadlıqlarının təminatına həsr olunmuş bir elmi araşdırma mövcud deyil.

Ümumilikdə, dissertasiyada yerli və xarici tədqiqatçıların əsərləri iki istiqamətdə təhlil edilmişdir: insan hüquqları sahəsində tədqiqatçıların informasiya sahəsində hüquq və azadlıqlarına dair əsərləri; informasiya hüququ və internet hüququ sahəsində tədqiqatçıların informasiya hüquq və azadlıqlarına dair əsərləri. Belə ki, xarici tədqiqatçıların məlumat azadlığına (C.Azer[3], G.Gülşah[4], C.Kaya[5], Ö.Çetin[6], İ.Fang[7], T.Mendel[8] və b.), ifadə azadlığına (M.Makovey[9], A.Küçük[10], Ç.Çeliköz[11], D.Ayhan[12], G.Gezer[13],

---

[3] Can Azer. Bilgi edinme hakkı: / Doktora tezi / – Ankara, 2010. – 282 s.

[4] Güven Gülşah. Bilgi Edinme Hakkı ve Türkiye'de Bilgi Edinme Hakkının Kullanımı Usulü ile Kullanma Konusunda Yaşanan Sorunlar // – İstanbul Barosu Dergisi, – 2012. 86 (4), – s. 138-156

[5] Cemil, Kaya. İsveç'te Resmi Belegelere Erişim Hakkı. – İstanbul: Yetkin Yayınları, – 2006. – 1238 s.

[6] Özek, Çetin. Basın Özgürlüğünden Bilgilenme Hakkına. – İstanbul: Alfa Yayınları, – 1999. – 579 s.

[7] Irving, Fang. A History of Mass Communication: Six Information Revolutions. – Boston: Focal Press, – 1997. – 280 p.

[8] Toby, Mendel. Freedom of Information: A Comparative Legal Survey. Second Edition Revised and Updated. – UNESCO: Paris, – 2008. – 156 p.

[9] Monika Makovey. İfadə azadlığı: İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 10-cu maddəsinin tətbiqinə dair məlumat kitabçası. – 2-ci nəşr, – yanvar 2004. – 66 s.

[10] Adnan, Küçük. İfade Hürriyetinin Unsurları. Liberal Düşünce Topluluğu. – Ankara: Cantekin Matbaası, – 2003. – 62 s.

[11] Çağrı, Çeliköz. İfade hürriyetinin yatay etkisi bağlaminda sosyal medya platformlarinin idari denetimi. – Konya, – 2023. – 137 s.

[12] Döner, Ayhan. Şeffaf Devlette Bilgi Edinme Hakkı ve Sınırları. – İstanbul: 12 Levha Yayınları, – 2010. – 318 s.

İ.Dağı[14], S.Özdemir[15], A.Şen[16], S.Coliver[17] və b.), fərdi məlumatlarla bağlı informasiya hüquqlarına (M.Reglitz[18], M.Ribble[19], Tjong F.E., Tjin Tai[20] və b.), yaradıcılıq azadlığına (A..Andersen Nawrot[21]), internet əlyetərliyi hüququna (M.L.Best[22], Chawla K.[23]) həsr olunmuş əsərlərində hüquqi və təcrübi istiqamətlər araşdırılmışdır.

Bundan əlavə, informasiya hüququ sahəsində Azərbaycan müəllifləri tərəfindən yazılmış dərslik və dərs vəsaitləri üzrə – Ə.İ.Əliyev, G.A.Rzayeva, A.N.İbrahimova, B.A.Məhərrəmov, Ş.S.Məmmədrzalı (İnformasiya hüququ)[24], R.M.Aslanov (İnformasiya cəmiyyətində demokratiyanın inkişaf istiqamətləri:

---

[13] Gülhan, Gezer. Sosyal medya özgürlüğü ve masumiyet karinesi ikilemi: / Yüksek lisans tezi / – İzmir, 2022. – 133 s.

[14] İhsan Dağı, Metin Toprak. Türkiye'de İnsan Hakları Ve İfade Özgürlüğü // – Ankara, Liberal Düşünce Topluluğu, – 2003, – s. 8-16

[15] Özdemir, S.S., Özdemir, M., Polat, E., Aksoy, R. Sosyal Medya Kavramı ve Sosyal Ağ Sitelerinde Yer Alan Online Reklam Uygulamalarının İncelenmesi // – Electronic Journal of Vocational Collages, – 2014. No. 4 (4), – s. 58-64

[16] Şen, A.F. ve Şen, Y.F. Sosyal Medya, İletişim Hakkı ve İfade Özgürlüğü Üzerine Bir Değerlendirme // – İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, – 2015. S. 17 (2), – s. 122-136

[17] Sandra, Coliver. The article 19 - Freedom of expression Handbook: International and Comparative Law, Standards and Procedures. – August 1993. – 285 p.

[18] Merten, Reglitz. The Human Right to Free Internet Access // – Journal of Applied Philosophy, – 2020. Vol. 37, No. 2, – pp. 314-331

[19] Mike, Ribble, Gerald, D. Bailey. Digital Citizenship in Schools. – International Society for Technology in Education, – 2007. – 149 p.

[20] Tjong F.E., Tjin Tai. The right to be forgotten – private law enforcement // – International Review of Law, Computers & Technology, – 2016. Vol. 30, Nos. 1-2, – pp. 76-83

[21] Anna Maria Andersen, Nawrot. The Utopian Human Right to Science and Culture: Toward the Philosophy of Excendence in the Postmodern Society. – 1st Edition, Routledge, – 2014. – 232 p.

[22] Best, M.L. Can the internet be a human right // – Human Rights & Human Welfare, – 2004. No. 4(1), – pp. 23-31

[23] Chawla, K. Right to Internet Access – A Constitutional Argument // – Indian Journal of Constitutional Law, – 2017. No. 57, – pp. 57-88

[24] İnformasiya hüququ: dərslik / Ə.İ.Əliyev, G.A.Rzayeva, A.N.İbrahimova, B.A.Məhərrəmov, Ş.S.Məmmədrzalı –Bakı: Nurlar nəşriyyatı, – 2019. – 448 s.

rəqəmsal demokratiya[25]; İnformasiya hüququnun əsasları və aktual problemləri[26]), R.F.Əzizov (İnternet şəbəkəsində tənzimləmənin müqayisəli hüquqi təhlili)[27] kimi alimlərin şərhlərinə müraciət olunmuşdur. Eyni zamanda, informasiya cəmiyyətinə həsr olunmuş elmi məqalələrdən (Əliquliyev R.M., Mahmudov R.Ş., İbrahimova A.N., İmamverdiyev Y. və b.) ümumi məsələlərin şərhində istifadə olunmuşdur.

Doktorluq dissertasiyalarına gəldikdə isə, milli səviyyədə informasiya hüquq münasibətlərinə aid yalnız bir neçə tədqiqat işi aparılmışdır: R.M.Aslanovun "Azərbaycan Respublikası və Rusiya Federasiyasında informasiya cəmiyyəti quruculuğunda informasiya təhlükəsizliyinin hüquqi təminatının nəzəri və konstitusiya əsasları"[28] mövzusunda, A.N.İbrahimovanın "İnformasiya təhlükəsizliyinin beynəlxalq və dövlətdaxili hüquqi müdafiə mexanizmləri" mövzusunda dissertasiya işi[29] informasiya təhlükəsizliyi ilə bağlı məsələlərə həsr edilmişdir. Bundan əlavə, H.O.Əlizadə informasiya hüquq pozuntuları və informasiya hüquqi məsuliyyətlə bağlı tədqiqat aparmışdır[30]. Göründüyü kimi, aparılmış tədqiqatların hamısı informasiya təhlükəsizliyi ilə bağlı problemləri əhatə etmişdir.

Bundan əlavə, informasiya hüquq və azadlıqlarının təminatının ayrı-ayrı aspektləri dərslik, dərs vəsaiti və elmi məqalələr

---

[25] Aslanov, R.M. İnformasiya cəmiyyətində demokratiyanın inkişaf istiqamətləri: rəqəmsal demokratiya. – Bakı, – 2022. – 229 s.
[26] Aslanov, R.M. İnformasiya hüququnun əsasları və aktual problemləri. Dərslik. – Bakı: Ləman, – 2019. – 424 s.
[27] Əzizov, R.F. "İnternet" şəbəkəsində tənzimləmənin müqayisəli hüquqi təhlili. – Bakı: Elm, – 2017. – 216 s.
[28] Aslanov R.M. Azərbaycan Respublikası və Rusiya Federasiyasında informasiya cəmiyyəti quruculuğunda informasiya təhlükəsizliyinin hüquqi təminatının nəzəri və konstitusiya əsasları: / Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işinin avtoreferatı / – Bakı, – 2016. – 56 s.
[29] İbrahimova, A.N. İnformasiya təhlükəsizliyinin beynəlxalq və dövlətdaxili hüquqi müdafiə mexanizmləri: / Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işinin avtoreferatı / – Bakı, – 2016. – 50 s.
[30] Əlizadə, H.O. İnformasiya hüquq pozuntuları və informasiya-hüquqi məsuliyyət: nəzəri və təcrübi aspektlər: / Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı / – Bakı, – 2023. – 30 s.

səviyyəsində xarici müəlliflərdən O.A.Qorodov, M.M.Rassolov, İ.L.Baçilo, V.A.Kopılov, V.N.Lopatin, M.A.Fedotov, R.Uolters, S.D.Uorren, L.D.Brendays, C.Hoffman, A.C.Evans, L.Stephen, K.M.Yilma, Shiller Hebert I., M.J.Blanke və b. tərəfindən tədqiq edilmişdir. Dissertasiyada qeyd olunan tədqiqatlardan ayrı-ayrı informasiya hüquq və azadlıqlarının təhlilində geniş istifadə edilmişdir. Eyni zamanda, beynəlxalq ümumi və xüsusi hüquq sahəsində yazılmış milli ədəbiyyatlardan R.F.Məmmədov[31], Ə.Q.Məmmədov[32] kimi alimlərin əsərlərinə müraciət olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektinə informasiya sahəsində hüquq və azadlıqların təminatının beynəlxalq və milli-hüquqi problemləri daxildir. Tədqiqatın predmeti qismində isə informasiya sahəsində hüquq və azadlıqların təminatı üzrə beynəlxalq və milli-hüquqi tənzimləmələr və mövcud çatışmazlıqlar çıxış edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi informasiya sahəsində hüquq və azadlıqların təminatı və müdafiəsinin beynəlxalq və milli-hüquqi problemlərini aşkara çıxarmaq, həmin problemlərin aradan qaldırılmasına dair təklif və tövsiyələr işləyib hazırlamaq, o cümlədən informasiya sahəsində hüquq və azadlıqların müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə dair hüquqi və təcrübi təkliflər təqdim etməkdən ibarət olmuşdur.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün qarşıya qoyulan aşağıdakı vəzifələr ardıcıllıqla yerinə yetirilmşdir:

- informasiya sahəsində əsas insan hüquq və azadlıqlarına yeni müasir yanaşmanı şərtləndirən informasiya cəmiyyəti quruculuğu, rəqəmsallaşma və elektron idarəetmə ilə bağlı nəzəri-tarixi təhlillərin aparılması, qlobal proseslərin insan hüquqlarının inkişafına təsir istiqamətlərinin təhlili;
- informasiya sahəsində əsas hüquq və azadlıqların insan hüquqları sistemində yerinin müəyyənləşdirilməsi;

---

[31] Məmmədov, R.F. Beynəlxalq hüquq. – Bakı: Qanun nəşriyyatı, – 2002. – 752 s.
[32] Məmmədov, Ə.Q. Beynəlxalq hüququn ümumtanınmış prinsipləri Azərbaycan Respublikasının beynəlxalq xüsusi hüquq qanunuvericiliyinin hüquqi əsası kimi // – Bakı: Azərbaycan hüquq jurnalı, – 2004. № 3, – s. 86-97.

- informasiya sahəsində əsas hüquq və azadlıqların beynəlxalq və milli hüquqi tənzimetməsinin müqayisəli təhlili;
- informasiya sahəsində hüquq və azadlıqların milli hüquqda tənzimlənməsi ilə beynəlxalq-hüquqi tənzimetmə arasında fərqlərin və ziddiyyətlərin müəyyən edilməsi və məqsədəuyğun təkliflərin təqdim olunması;
- informasiya hüquqlarının müdafiəsi üzrə beynəlxalq və milli müdafiə mexanizmlərinin fəaliyyət istiqamətlərinin təhlil edilməsi;
- rəqəmsallaşma proseslərinin informasiya sahəsində hüquq və azadlıqların realizəsinə təsir istiqamətlərinin tədqiqi;
- informasiya sahəsində hüquqların həyata keçirilməsində maneə kimi çıxış edən rəqəmsal bərabərsizliyin qlobal və lokal səviyyədə aradan qaldırılmasına dair təkliflərin təqdim olunması;
- məlumat azadlığının informasiya hüquqi tənzimlənməsinin əsas xüsusiyyətlərinin müəyyən edilməsi;
- -informasiya əldə etmək hüququnun elementlərinin dairəsinin müəyyənləşdirilməsi;
- informasiya əldə etmək hüququna dair milli-hüquqi tənzimləmədə olan problemlərin həlli yollarına dair tövsiyələrin işlənib hazırlanması;
- fikir və söz azadlığının informasiya-hüquqi tənzimlənməsi üzrə hüquqi və təcrübi problemlərin təhlili, təklif və tövsiyələrin təqdim olunması;
- yaradıcılıq azadlığının təminatının hüquqi və təcrübi aspektlərinin araşdırılması;
- informasiya sahəsində əsas hüquq və azadlıqların digər hüquqlarla qarşılıqlı əlaqəsinin tədqiqi;
- insanın şəxsi həyatı sferasında informasiya azadlığının sərhədlərinin hüquqi tənzimlənməsinin yollarının müəyyən edilməsi.

**Tədqiqat metodları.** Tədqiqat zamanı həm ümumelmi, həm də xüsusi metodlardan kompleks formada istifadə olunmuşdur. Daha çox müraciət olunmuş müqayisəli təhlil metodu bir tərəfdən beynəlxalq və milli normaların arasındakı oxşar və fərqli xüsusiyyətlərin üzə çıxarılmasına xidmət etmişdir, digər tərəfdən ayrı-ayrı dövlətlərin informasiya qanunvericiliklərini Azərbaycan Respublikasının dövlətdaxili tənzimləmələri ilə müqayisə etməklə

daha səmərəli hüquqi tənzimləməni müəyyən etməyə imkan vermişdir. Müqayisəli təhlillərin aparılması həm də təcrübi məsələlərin (məsələn, məhkəmə təcrübəsinin, elektron idarəetmə və açıq hökumətlə bağlı layihələrin icrası) araşdırılması ilə əlaqədar da aparılmış və qabaqcıl təcrübələr müəyyən olunmuşdur. Burada əsas məqsəd respublikamızda informasiya sahəsində hüquq və azadlıqların müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə xidmət edir.

Problemlərin araşdırılması zamanı tarixilik meyarından da yan keçilməmişdir. İnformasiya cəmiyyəti quruculuğu, elektron idarəetmənin təşəkkül tapması kimi tarixi məqamlar xronoloji tədqiqat metodunun tətbiqi ilə təhlil olunmuş, informasiya sahəsində hüquq və azadlıqların müdafiə mexanizmləri ilə bağlı hüquqi tənzimləmələrin yenidən işlənib hazırlanması təklifləri məhz bu metoda istinadən əsaslandırılmışdır.

İnformasiya sahəsinin kompleksliyi nəzərə alınaraq, milli qanunvericilik aktlarının tədqiqi zamanı germenevtik və sinergetik metodlardan istifadə olunmuşdur.

Eyni zamanda, analiz və sintez, induksiya və deduksiya müxtəlif təhlillərin aparılmasında və nəticələrin əldə olunmasında geniş istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyini özündə ifadə edən əsas yeni elmi müddəalar aşağıdakılardır:**

1. Məlumat azadlığı və informasiya əldə etmək hüququ eyni anlayışlar deyildir. İnformasiya əldə etmək hüququ daha dar mənada qəbul olunur, çünki konkret tələbin yönəldiyi subyektlərin dairəsi vardır. Lakin məlumat azadlığında şəxsin əldə edə biləcəyi məlumat mənbəyi təkcə dövlət qurumları və təşkilatları deyil, bir çox müxtəlif mənbələrdən məlumat əldə etmək mümkündür. İnformasiya əldə etmək hüququnun elementləri bu hüququn yönəldiyi informasiyanın növü və hüquqi rejimindən asılı olaraq dəyişir. Bundan asılı olaraq informasiya əldə etmək hüququ iki formada həyata keçirilir: şəxsin özünə aid informasiyaya dair hüquqları və şəxsin başqa informasiyaları əldə etmək hüququ. Hər iki forma müxtəlif səlahiyyətləri özündə ehtiva edir. Məlumat azadlığının elementləri sırasında "məlumatları axtarmaq", "məlumatları əldə etmək" və

“məlumatları yaymaq” hüquqları tanınmalıdır. Məlumatları ötürmək və hazırlamaq hüquqları məlumat azadlığının məzmununa daxil edilmir. Çünki birinci element konkret səlahiyyətli subyektlərə aiddir, ikinci element isə yaradıcılıq azadlığı və əqli mülkiyyət hüququ ilə əlaqəlidir.

2. İfadə azadlığının məzmunu üç əsas elementdən ibarətdir. Həmin elementlərdən birincisi düşüncə və ya ifadənin formalaşması prosesidir ki, bu prosesə təsir göstərən başlıca faktor məlumat azadlığının düzgün təminatıdır. Çünki şəxsin sərbəst şəkildə fikir öyrənməsi və əldə etməsi üçün lazımi şəraitin olması vacibdir ki, belə şərait məlumat azadlığının maneəsiz təmin olunduğu demokratik cəmiyyətdə mövcud olur. İkinci element düşüncə və fikir azadlığıdır. Bu, şəxsin məlumatların alınması və yayılmasında sərbəstliyini ifadə edir. Sonuncu element isə fikirləri ifadə etmək azadlığıdır ki, bu da şəxsin istənilən ünsiyyət vasitələrindən istifadə edərək əldə etdiyi məlumat və fikirləri sərbəst ifadə etmək hüququnu bildirir.

3. Əksər dövlətlərin qanunvericiliyində (xüsusilə konstitusion qaydada) və beynəlxalq-hüquqi tənzimləmədə məlumat azadlığının və ifadə azadlığının məhdudlaşdırılmasına dair əsaslar konkret müəyyən olunmuşdur. Bu, qeyd olunan azadlıqların təminatı baxımdan xüsusi əhəmiyyətə malikdir. Çünki əsassız məhdudlaşdırma və pozulma hallarının qarşısını alır. Hər iki azadlığın məhdudlaşdırılmasına dair əsasların dəqiq müəyyən olunması təminat və müdafiə baxımdan zəruri sayılır.

4. XX əsrin əvvəllərindən etibarən İnternet adlı kommunikasiya platforması ifadə azadlığından istifadə üçün mühüm və əvəzedilməz vasitəyə çevrilmişdir. Bu da ənənəvi qaydada realizə olunan ifadə azadlığına onlayn formanın da əlavə edilməsinə gətirib çıxarmışdır. Onlayn ifadə azadlığının hüquqi tənzimlənməsi mövcud beynəlxalq və dövlətdaxili mənbələrlə mümkün olsa da, yeni dövrə xas olan problemlər bir sıra çətinliklər və ziddiyyətlər yaradır. Avropa Məhkəməsinin müəyyən etdiyi şərtlər, xüsusilə də legitim maraqların müdafiəsi çərçivəsində məhdudiyyətlərin tətbiqi əksər hallarda milli səviyyədə həyata keçirilir. Bu halda ölkə xaricində həmin qadağan olunmuş məzmuna daxil olma və məlumatın başqa sosial media vasitələri ilə ötürülüməsi faktları da az deyil. Bu

baxımdan, sosial mediada ifadə azadlığı kontekstində anonimliyin qəbul edilməsi şərtləri və qaydalarının daha da sərtləşdirilməsi zəruridir. Eyni zamanda, informasiya sahəsində mövcud qanunvericilik normalarının dövrün tələblərinə uyğun yenidən işlənməsi məqsədəmüvafiqdir.

5. Ətraf mühitə dair informasiya almaq hüququnun həm aktiv, həm də passiv tərəfi vardır. Passiv tərəf qanunvericiliklə dövlət orqanlarının üzərinə ətraf mühitə dair informasiyanın ictimaiyyətə çatdırılması ilə bağlı vəzifələr qoyulmasını əhatə edir. Aktiv tərəf isə hər bir şəxsin ətraf mühitə dair informasiya almaq üçün müraciət və ya sorğu verməklə öz hüququnu həyata keçirməsini ifadə edir.

6. Beynəlxalq-hüquqi baxımdan yaradıcılıq fəaliyyətinin bütün növləri mədəni həyatda iştirakın formaları hesab oluna bilər. Lakin milli qanunvericilik aspektindən mədəniyyət hüququ yaradıcılıq fəaliyyətini həyata keçirmək hüququnu ehtiva etmir. Deməli, BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsi də 21 nömrəli Şərhində və beynəlxalq normalarda nəzərdə tutulan töhfə komponenti ("mədəni həyatda iştirak"ın əsas üç komponentindən biri) konstitusion qaydada yaradıcılıq azadlığı formasında ayrıca maddədə ifadə olunmuşdur. Ona görə də elmi fəaliyyət mədəniyyət hüququnun deyil, yaradıcılıq azadlığının realizə forması hesab edilir.

7. Unudulmaq hüququnun müasir dövrdə meydana gəlməsi internetin həyatımızın ayrılmaz hissəsinə çevirilməsi səbəbindən ayrı-ayrı şəxslər haqqında məlumatların əlyetərlik səviyyəsinin artması ilə əlaqədardır. Unudulmaq hüququ keçmişdə yaşanan bir hadisəni, bir insanın nümayiş etdirdiyi davranışı və ya keçmişə aid digər şəxsi və ailə həyatına dair məlumatları özündə cəmləşdirən məzmunun üstün bir maraq olmadığı halda, digər insanlar tərəfindən davamlı olaraq əldə edilməsinin qarşısını almaq marağında ifadə olunur. Bu marağın əsas mahiyyətini insanın fiziki və mənəvi toxunulmazlığını qorumaq çərçivəsində şəxsiyyətini sərbəst şəkildə inkişaf etdirə bilmək istəməsi təşkil edir, yəni insan əvvəllər baş vermiş hər hansı bir neqativ hadisə və faktlara görə qınanmaqdan müdafiə olunmalıdır ki, həyatını istədiyi formada davam etdirə bilsin. Məhz fiziki və mənəvi toxunulmazlığın qorunması məqsədi unudulmaq hüququnun şəxsi toxunulmazlıq hüququ ilə arasında fərqi

müəyyənləşdirməkdə çaşqınlıq yaradır. Lakin burada ən başlıca fərq ondan ibarətdir ki, şəxsi həyatın toxunulmazlığı hüququ fərdi məlumatların qanuna zidd olaraq ictimaiyyətə açıqlanmaması maraqlarını əhatə edir. Unudulmaq hüququnda isə artıq həmin məlumatlar vaxtilə şəxsin özünün razılığı ilə açıqlanmışdır, lakin indi əhəmiyyətini itirmişdir. Həmçinin burada başlıca fərq ondan ibarətdir ki, məlumatlar daha çox qanuna uyğun olaraq fərdin nəzarətindən çıxarılaraq ictimai sferaya yayılmışdır. Ona görə də unudulmaq hüququ ictimailəşdirilmiş (ictimaiyyətə yayılmış) məlumatları əhatə edir. Unudulmaq hüququ sırf internet üzərindən yayılmış məlumatların müəyyən zaman kəsiyi keçdikdən sonra silinməsinin tələb olunmasıdır.

8. Almaniya Federal Konstitusiya Məhkəməsinin təcrübəsində yaranmış rəqəmsal hüquq olan öz informasiyasının müqəddəratını təyinetmə hüququ müasir informasiya hüququ elmi üçün yeni anlayış hesab olunur ki, bununla bağlı nəzəri yanaşmalar azlıq təşkil edir. Sözügedən hüquq şəxsin öz müqəddəratını təyinetmə ideyasına əsaslanır və onun şəxsi və ailə həyatına dair informasiyasının, daha dəqiq desək, fərdi məlumatlarının başqa şəxslərə ötürülmək şərtləri (zaman, hüquqi rejim və s.) barədə müstəqil qərar vermək səlahiyyətini əhatə edir. Lakin bu zaman şəxsin öz fərdi məlumatları ilə bağlı nəzarət hüquqları qeyri-məhdud xarakter daşımamalı, leqitim maraqlarla mütənasibliyin qorunması təmin edilməlidir.

9. İnternet əlyetərliyinin insan hüququ kimi qəbul edilməsi BMT-nin 2016-cı ildə "informasiyanın onlayn əldə edilməsinin və ya yayılmasının qəsdən qarşısını almaq və ya pozmaq məqsədilə tədbirlər beynəlxalq insan hüquqları hüququnu pozur" bəyanatından[33] sonra baş verdi. Müxtəlif mənbələrdə "internet azadlığı", internet əlyetərliyi", "internetə olan hüquq", "internetə çıxış hüququ" və s. bu kimi adlar altında şərh olunan internet əlyetərliyi onlayn ifadə azadlığının təminatında mühüm əhəmiyyət

---

[33] Government Policy for the Internet Must Be Rights-Based and User-Centred. [Elektron resurs]. URL: https://www.un.org/en/chronicle/article/government-policy-internet-must-be-rights-based-and-user-centred [son daxil olma tarixi: 21.12.2023]

kəsb edir. İnternet əlyetərliyi əksər hallarda ifadə azadlığına dair məhdudiyyətlərlə əlaqələndirilir. Lakin burada söhbət hər hansı bir vebsayta girişin məhdudlaşdırılmasından deyil, ümumilikdə universal internetə çıxışın təmin olunmasından gedir. Ona görə də internet əlyetərliyi ayrıca hüquq kimi qiymətləndirilməlidir.

10. Rəqəmsal dünyada milyardlarla internet istifadəçisinin onlayn hüquqlarının qorunması ənənəvi cəmiyyətlə müqayisədə fərqli problemlər formalaşdırır. Belə problemlərdən biri olan şəbəkə neytrallığı dövrün aktual mövzularından sayılır. Beynəlxalq səviyyədə müxtəlif sənədlərdə təsbit olunsa da, hələ də dövlətdaxili hüquqda şəbəkə neytrallığına leqal yanaşma verilməmiş, eləcə də onun internet əlyetərliyindən fərqli tərəfləri müəyyən edilməmişdir. Bu da təcrübədə insan hüquq və azadlıqlarının onlayn mühitdə də qorunması üçün bir sıra çətinliklər yaradır. Azərbaycanda hələ də şəbəkə neytrallığı ilə bağlı hüquqi tənzimləmə olmasa da, müxtəlif dövlətlərin, eləcə də Avropa Birliyinin şəbəkə neytrallığı ilə bağlı qaydaları bu sahədə bəzi məsələlərə aydınlıq gətirmişdir. Lakin hələ də internet provayderlərin qərəzsizliyinin necə tənzimlənməsi ilə bağlı konsensus yoxdur, şəbəkə neytrallığının təminatı ilə bağlı mexanizmlərdə boşluq və ziddiyyətlər mövcuddur. Şəbəkə neytrallığının texniki tərəfləri üzrə tənzimləmələr ayrı-ayrı insan hüquq və azadlıqlarının (xüsusilə ifadə azadlığı, şəxsi toxunulmazlıq hüququ) qorunmasını diqqət mərkəzində saxlamalıdır.

11. İnternetin açıq olması şəbəkə neytrallığının da təminatını şərtləndirir. Şəbəkənin idarə edilməsi optimal şəbəkə istifadəsi və digər yeniliklər üçün vacibdir. Bu gün demək olar ki, dünya dövlətlərinin əksəriyyətində bir şəbəkə operatoru Google, Facebook və ya Skype kimi xidmətləri bloklamaq və ya ayrı-seçkilik etmək imkanına malik deyil. Lakin təcrübədə müxtəlif sosial şəbəkə platformalarına girişin məhdudlaşdırılması və ya bloklanması faktları da mövcuddur ki, belə faktlar şəbəkə neytrallığı çərçivəsində şərh olunmamalı, internet əlyetərliyi hüququ kontekstində təhlil olunmalıdır. Çünki şəbəkə neytrallığı avadanlıqdan, məzmundan, müəllifdən, məzmunun, xidmətin və ya tətbiqin mənşəyindən və ya təyinatından asılı olmayaraq, internet məlumatlarına və trafikə münasibətdə heç bir ayrı-seçkilik olmamasını tələb edir. Amma bu

danılmaz faktdır ki, şəbəkə neytrallığı prinsipinin ləğvi dolayısı ilə internet əlyetərliyi hüququnu da pozur. Çünki şəbəkə neytrallığının ləğvi nəticədə internet xidmətlərinin istifadəçilərə təqdim edilməsində inhisarçılığa gətirib çıxaracaqdır. Ona görə də hər iki termin əlaqəli şəkildə hüquqi tənzimlənmə əhatəsinə düşməlidir.

12. İKT-nin insan həyatını bütünlüklə əhatə etməsi vətəndaşlıq və insan hüquqları institutuna da yanaşma tərzini dəyişmiş, "elektron-vətəndaş", "rəqəmsal vətəndaş", "rəqəmsal hüquqlar" və s. yeni anlayışların meydana gəlməsini şərtləndirmişdir. Ədəbiyyatda mövcud nəzər-nöqtələrinə əsasən, "elektron vətəndaş" və "rəqəmsal vətəndaş" anlayışları mahiyyət etibarilə eynilik təşkil etdiyini söyləmək olar. Elektron vətəndaş (e-vətəndaş) informasiya cəmiyyətinin üzvü hesab olunur və öz hüquq və azadlıqlarını İKT-dən istifadə edərək elektron qaydada həyata keçirir.

13. Elektron vətəndaşın qlobal vətəndaşdan fərqləndirilməsi vacibdir. Qlobal vətəndaş dünyanı dərk edən və öz mövqeyini bilən insan olub, cəmiyyət həyatında fəal rol oynayır və planetimizi daha bərabər, ədalətli və davamlı etmək üçün başqaları ilə birlikdə çalışır. Qısa sözlə desək, qlobal vətəndaşlıq "yerli", "milli" və "qlobal" arasında siyasi, iqtisadi, sosial və mədəni qarşılıqlı asılılığı və qarşılıqlı əlaqəni müəyyənləşdirir.

14. Cəmiyyətdə məlumatlar bərabər şəkildə yaradılmır və ya toplanmır. Bir regionda yaşayan əhali haqqında məlumatlar təbii ki, daha çox olur və bu da süni intellekt sistemlərinə yerləşdirilən verilənlərə öz təsirini göstərəcəkdir. Təcrübi faktlar təsdiq edir ki, süni intellekt sistemi yaradıldığı an deyil, ona verilənlər daxil edildiyi zaman ayrı-seçkiliyə yol verilə bilər və bu da nəticə etibarilə informasiya bərabərsizliyini formalaşdıracaqdır. Yeni texnologiyaların tətbiqi zamanı ayrı-seçkiliyin qarşısını almaq üçün həm beynəlxalq və regional, həm də dövlətdaxili çərçivədə ayrı-seçkiliyə yol verməmə üzrə etik prinsiplərin sərhədləri dəqiqləşdirilməlidir. Eyni zamanda, məhkəmə təcrübəsi də bunu dəstəkləməlidir. Google İspaniyaya qarşı işində deyildiyi kimi, şəxsi toxunulmazlıq

hüququ şirkətin iqtisadi mənafeyindən və bəzi hallarda məlumat əldə etmək üçün ictimai maraqdan daha böyükdür[34].

15. Sonuncu informasiya inqilabı yeni cəmiyyətin – informasiya cəmiyyətinin formalaşması ilə nəticələnsə də, ənənəvi cəmiyyətdə mövcud olan problemlər "varisliklə" informasiya cəmiyyətinə də keçmişdir. Əvvəlki münasibətlərin yeni forma alması həmin problemlərin daha fərqli müstəvidə üzə çıxmasına gətirib çıxarmışdır. Ona görə də rəqəmsal bərabərsizliyi yalnız İKT-nin inkişafı aspektindən şərh etmək məsələyə birtərəfli yanaşma kimi qiymətləndirilə bilər. Cəmiyyətdə mövcud olan ənənəvi bərabərsizlik və rəqəmsal bərabərsizlik arasında qarşılıqlı təsir vardır. Belə ki, ənənəvi cəmiyyətin problemləri rəqəmsal bərabərsizliyi yaradan amillər kimi çıxış etsə də, rəqəmsal bərabərsizliyin aradan qaldırılmaması həmin problemlərin daha da artmasına, hətta yeni formalarda təzahür etməsinə gətirib çıxaracaqdır. Məsələn, "informasiya inhisarçıları" və "informasiya yoxsulları" formalaşacaq və bu da dövlətlər arasındakı uçurumu bir az da genişləndirəcəkdir. Belə uçurumun nəticəsi olaraq, daha təhlükəli problemlər meydana çıxa bilər. Məsələn, informasiya müharibələri, psixoloji hücumlar və s. Ona görə də rəqəmsal bərabərsizliyin aradan qaldırılması bəşəriyyət qarşısında dayanan ən vacib vəzifələrdən biri hesab olunur. Çünki bu, nəticə etibarilə, ənənəvi cəmiyyətin problemlərini də "sıfıra" endirmiş olacaqdır.

16. Yeni texnologiyaların tətbiqi ilə bağlı insan hüquqlarının realizəsi imkanlarında müsbət istiqamətdə dəyişikliklər başı verir ki, mövcud qanunvericilik aktlarına dövrün tələblərinə uyğun yenidən baxılması məqsədəmüvafiqdir. Burada təsir iki istiqamətdə gedir: Birincisi, yeni texnologiyaların tətbiqi digər hüquqlar kimi informasiya hüquqlarının da realizəsi üçün geniş imkanlar təqdim edir. Məsələn, qlobal informasiya məkanından istənilən informasiyaya çıxışın əldə edilməsi və ya özü haqqında məlumatların

[34] Google Spain SL and Google Inc. v Agencia Española de Protección de Datos (AEPD) and Mario Costeja González (2014). [Elektron resurs]. URL: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX%3A62012CJ0131 [son daxil olma tarixi: 21.12.2023]

asanlıqla elektron qaydada isitfadəsi mümkünlüyü. İkincisi isə, rəqəmsallaşma və elektronlaşma prosesləri müxtəlif insan hüquqları, o cümlədən informasiya hüquqları üçün də risklər formalaşdırır. Məsələn, elektron mühitdən istifadə etməklə fərdi məlumatların özbaşına və asanlıqla idarə edilməsi. Bununla əlaqədar olaraq, daha münasib qoruma mühitinin formalaşdırılması üçün mövcud normalarda olan hüquqi müdafiə mexanizmləri yenidən işlənib hazırlanmalıdır və bu zaman aşağıdakı  aşağıdakı məsələlərin ardıcıllıqla həlli vacibdir: Hansı hüquqları qorumağa çalışırıq; Yeni texnologiyaların bu hüquqlar üçün yaratdığı risklər hansılardır; Cari qanunvericilik bu riskləri nə dərəcədə azaltmışdır; Cari qanunvericiliyin cari vəziyyətdə tətbiqi hansı risklərə səbəb ola bilər; Cari qanunvericilik hansı dəyərləri və kompromisləri nəzərdə tutur.

17. İnformasiya qanunvericiliyinin vahid bir formaya salınması, daha dəqiq desək informasiya məcəlləsinin qəbulu, informasiya hüquq və azadlıqlarına dair bir çox elmi müddəaların həmin məcəllədə öz əksini tapması informasiya hüquq və azadlıqlarının realizəsi və təminatı üzrə mövcud normaların təkmilləşməsinə xidmət edə bilər. Bununla da informasiya sahəsinin tənzimlənməsi üzrə mövcud təkrarlıq və ziddiyyətlərin qarşısı alına bilər.

18. Həm beynəlxalq, həm də milli hüquq vətəndaşa bir çox hüquq və azadlıqlar vəd edə bilər. Lakin vətəndaş bu hüquq və azadlıqları realizə etmək bacarığına malik deyilsə, sonda effektiv nəticəni əldə etmək heç də mümkün olmayacaqdır. Belə bacarıqsızlıq isə cəmiyyətdə mövcud olan rəqəmsal bərabərsizliyin kökündə dayanan ənənəvi sosial, siyasi, irqi və s. fərqliliklərdən irəli gəlir. Məsələn, dövlət vətəndaşa e-ticarətin həyata keçirilməsi üçün geniş imkanlar yaradır və bu, azad sahibkarlıq hüququnun maneəsiz realizəsi deməkdir. Lakin sosial baxımdan fərqliliyin olması bəzi vətəndaşların ona verilən imkanlardan məlumatsızlığına, həmin imkanlardan istifadə etməməsinə gətirib çıxarır. Qeyd olunanları nəzərə alaraq, informasiya cəmiyyətinin müsbət tərəflərinin adi vətəndaşlara aşılanması ilə bağlı tədbirlər görülməlidir.

19. Cəmiyyətin təxminən bütün üzvlərinin media vasitələrindən istifadə etməsi burada İKT ilə bağlı məlumatların

yerləşdirilməsinə şərait yaradır. Lakin əhalinin heç də hamısı savadlı təbəqəyə aid deyil. Ona görə də sırf informasiya cəmiyyəti, elektron dövlət problemləri ilə bağlı televiziya verilişlərinin hazırlanması o qədər də səmərə verməyə bilər. Bu baxımdan, fərdi xüsusiyyətləri nəzərə almaq daha düzgün olar. Müxtəlif kütlənin maraq dairəsinə uyğun olan televiziya və radio verilişlərində bilvasitə üsullarla və yorucu olmayan formada hər hansı bir məlumatın verilməsi ilə vətəndaşlarda informasiya sahəsinə marağın oyadılmasına nail olmaq mümkündür. Burada həmçinin, onu da nəzərə almaq lazımdır ki, əhalinin müxtəlif təbəqələri medianın müxtəlif formalarından istifadə edir. Ona görə də təsir üsullarının yalnız televiziya və radio yayımı ilə məhdudlaşmayıb, bütün yayım formalarını əhatə etməsi daha uğurlu nəticələr verə bilər. Məhz ona görə Milli Strategiyalarda əhalinin maaarifləndirilməsi və teleişin tətbiqi informasiya cəmiyyətinin yarandığı gündən prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Burada yaşlı nəslin İKT-yə marağının artırılmasına da xüsusi diqqət ayrılır. Dünya təcrübəsində tətbiq olunan telefonlara müxtəlif mobil əlavələrin yüklənməsi, eləcə də yaşlı insanlar üçün yaradılan təhsil müəssisələrində (University of the Third Age) kompüter biliklərinin aşılanması kimi tədbirlərin respublikamızda da tətbiqi daha yüksək səmərə verə bilər. Nəticədə yaşlı nəslin təcrübi biliklərindən yararlanmaq və həmin bilikləri yeni şəraitə uyğun formada tətbiq etmək mümkündür.

20. Paylaşmaq (share) və valideynlik (parenting) sözlərinin birləşməsindən əmələ gələn sharenting (paylaşım) valideynlərin sosial media platformalarında uşağın gündəlik həyatı ilə bağlı paylaşımlar etməsidir. Sharentingin insan hüquq və azadlıqlarının qorunması aspektindən təhlili ona görə zəruridir ki, bu problem həssas qruplar sayılan uşaqların şəxsi həyatına bilavasitə müdaxilə kimi qəbul edilə bilər. Sharenting probleminin aradan qaldırılması üçün unudulmaq hüququndan istifadə tam həll yolu deyil. Çünki uşağın yetkinlik yaşına çatmasına qədərki dövrdə arzuolunmaz məlumatlar sosial şəbəkə platformalarında qala bilər. Sharentingin valideynlə əlaqəli olmasını nəzərə aldıqda, valideynin heç vaxt öz övladının pisliyini istəməməsi deyiminə istinad etmək bir o qədər düzgün olmazdı. Məsələn, bir çox hallarda öz övladının çılpaq

şəkillərini paylaşan valideyn onun hüquqlarını pozmuş olur. Bu kimi halların qarşısının alınması məqsədilə həm milli tənzimləmədə konkret qaydaların müəyyən olunması, həm də sosial medianın idarə olunmasında sözügedən kontentlərin paylaşımının edilməsinə məhdudiyyətin qoyulması zəruridir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi burada informasiya sahəsində hüquq və azadlıqlara yeni müasir yanaşmanın təqdim olunmasında, yeni texnologiyaların inkişafı nəticəsində informasiya sahəsində formalaşan yeni hüquq və azadlıqların əlaqəli təhlil olunmasında, informasiya sahəsində hüquq və azadlıqların təminatına dair milli hüquq normalarında olan ziddiyyət və çatışmazlıqların aradan qaldırılması məqsədilə optimal təklif və tövsiyələrin irəli sürülməsində ifadə olunmuşdur. Belə ki, dissertasiya işində məlumat azadlığı və informasiya əldə etmək hüququ arasında fərq dəqiq şəkildə müəyyən olunmuş, elektron vətəndaşlığın elementləri konkret sadalanmış və məzmunu açılmış, yeni texnologiyaların tətbiqindən irəli gələn unudulmaq hüququ və öz informasiyasının müqəddəratını təyin etmək hüququ kimi yeni hüquqların təsbitinə dair normaların məzmunu dəqiq formulə edilmiş, informasiya hüquqları və şəxsi toxunulmazlıq hüququ arasında ziddiyyətlərin aradan qaldırılması məqsədilə qanunvericiliyə edilməli olan dəyişikliklərin siyahısı və məzmunu ilə bağlı təklif təqdim olunmuşdur ki, bütün bunlar milli informasiya hüququ sahəsi və elmi üçün yenilik kimi qiymətləndirilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti burada informasiya sahəsində əsas hüquq və azadlıqların dairəsinin, məlumat azadlığı və informasiya əldə etmək hüququ arasında fərqli cəhətlərin, informasiya sahəsi və informasiya cəmiyyətinin nəzəri-konseptual əsaslarının müəyyənləşdirilməsi, eləcə də ayrı-ayrı yeni informasiya hüquqları üçün nəzəri mənbələrin siyahısının dəqiq təqdim olunması ilə onların müfəssəl təhlili və nəzəri təkliflərin işlənib hazırlanmasında ifadə olunmuşdur.

Tədqiqatın təcrübi əhəmiyyəti isə informasiya sahəsində hüquq və azadlıqların milli qanunvericilikdə təsbiti üzrə mövcud ziddiyyət və çatışmazlıqların üzə çıxarılması, onların aradan qaldırılması ilə bağlı tövsiyələrin təqdim olunmasında, rəqəmsallaşma proseslərinin

informasiya hüquqlarına təsir aspektlərinin araşdırılması və dövrün tələbindən irəli gələn hüquqi dəyişikliklərə dair təkliflərin işlənib hazırlanmasında, həmçinin informasiya hüquqları ilə digər insan hüquq və azadlıqları arasında mütənasibliyin qorunub saxlanması üçün beynəlxalq məhkəmə orqanlarının təcrübəsinin milli məhkəmələrdə tətbiqi ilə əlaqədar səmərəli mexanizmlərin təklif olunmasında özünü büruzə vermişdir.

Tədqiqatın nəticələrindən bakalavr səviyyəsində "İnformasiya hüququ", "Kibertəhlükəsizlik hüququ", magistratura səviyyəsində "İnformasiya hüququ" ixtisaslaşması üzrə İnformasiya hüququnun əsasları və aktual problemləri, İnformasiya cəmiyyəti, hüquq və insan hüquqları, İnformasiya hüququ: nəzəriyyə və praktika, İnformasiya hüququnun beynəlxalq aspektləri və müqayisəli hüquq, İnformasiya texnologiyalarının hüquqi problemləri, İnternet hüququ, Elektron dövlət kimi fənlərin, eləcə də "İnsan hüquqları" ixtisaslaşması üzrə Ayrı-ayrı insan hüquqları, Qlobal informasiya cəmiyyətində insan hüquqları, Yeni texnologiyalar və insan hüquqları və s. fənlərin tədrisində geniş istifadə edilə bilər. Eyni zamanda, informasiya hüququ sahəsində gələcək tədqiqatlarda nəzəri və təcrübi mənbə kimi istinad oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatda əldə olunmuş nəticələr və yeniliklər müəllif tərəfindən dissertasiya mövzusu üzrə respublikanın və xarici dövlətlərin nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan, ingilis və rus) dərc olunmuş elmi məqalələrdə, eləcə də beynəlxalq elmi konfransların materiallarında (azərbaycan, rus, ingilis dillərində) öz əksini tapmışdır

**Dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya Bakı Dövlət Univeristetinin Hüquq fakültəsinin İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasında yerinə yetirilmişdir.

**Tədqiqat işinin strukturu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və

vəzifələri, elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəalar, tədqiqatın nəzəri və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

**Dissertasiyanın birinci fəsli "İnformasiya cəmiyyətinin inkişafının insan hüquqlarına təsiri"** adlanır və iki paraqrafdan ibarətdir.

**"İnformasiya cəmiyyətinin formalaşması və insan hüquqlarının inkişafı" adlanan birinci paraqrafda** informasiya cəmiyyətinin formalaşmasını şərtləndirən amillər, informasiya cəmiyyətinin xarakterik xüsusiyyətləri, bilik cəmiyyətlərinə dair nəzəri tarixi məsələlər təhlil edilir.

Bu paraqrafda informasiya cəmiyyətinin formalaşması və inkişafına dair nəzəriyyələr üç qrupda təsnifləşdirilir:

XX əsrin 60-cı illərinin ikinci yarısı – Yaponiya hesabatları[35]: Həmin hesabatlarda informasiya cəmiyyətinin ümumi xarakteristikası aşağıdakı kimi verilmişdir: keyfiyyətli informasiya mənbələrinin geniş inkişafı və hər kəsin onlara rahat çıxışı; insanları rutin işlərdən (o cümlədən onların bir çox intellektual növlərindən) azad edən avtomatlaşdırmanın və robotlaşdırmanın yüksək səviyyəsi; məhsulun dəyərində informasiyanın rolunun artması.

Orta dövr – Daniel Bellin "Yaxınlaşan postindustrial cəmiyyət. Sosial proqnozlaşdırma təcrübəsi" kitabı[36]: Qeyd olunduğu kimi, beşinci informasiya inqilabının baş verməsi sənaye cəmiyyətinin informasiya cəmiyyətinə keçidi ilə nəticələndi. Ona görə də ilkin dövrlərdə informasiya cəmiyyəti postsənaye cəmiyyəti kimi adlandırılırdı. Bu nəzəri baxışların əsasında görkəmli Amerika sosioloqu Daniel Bellin (1919-2011) "Postsənaye cəmiyyəti" konsepsiyası dayanır. Bu konsepsiyada müəllif bilik və texnologi-

---

[35] Əliquliyev, R.M., Mahmudov, R.Ş. İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri. // – İnformasiya cəmiyyəti problemləri, 2016. №2, – s. 4.; Масуда, Е. Информационное общество как постиндустриальное общество. – Москва: Эксмопресс, – 2003. – с.155.

[36] Bell, D. The Coming of Post-industrial Society: A Venture in Social Forecasting. Basic Books, – 1976. – 507 p.

yaların inkişafının cəmiyyətin tərəqqisinə təsir göstərdiyini ön plana çəkirdi.

Sonrakı dövr – Piter Draker və Manuel Kastelsin informasiya və biliklərə əsaslanan iqtisadi sistemə keçid haqqında nəzəriyyəsi[37]: M.Kastels şəbəkə cəmiyyətinin problemlərini aşağıdakı kimi xarakterizə edir: internetin idarə edilməsi ilə bağlı problemlər; internetin imkanlarından istifadə ilə bağlı məhdudiyyətlər, rəqəmsal bərabərsizlik; informasiyanın işlənməsi qabiliyyətinin inkişafı ilə bağlı problemlər; əmək münasibətlərinin transformasiyası ilə bağlı problemlər; təbii resursların istismarının intensivliyinin artması ilə bağlı problemlər; insanın yaratdığı texnologiyaların onun nəzarətindən çıxması qorxusu.

**"İnformasiya sahəsində əsas hüquq və azadlıqların insan hüquqları sistemində yeri" adlanan ikinci paraqraf** informasiya əldə etmək hüququ və məlumat azadlığının fərqli xüsusiyyətlərinin müəyyən edilməsinə, bütövlükdə informasiya sahəsində hüquq və azadlıqlarının dairəsinin dəqiqləşdirilməsinə həsr olunmuşdur.

İnformasiya sahəsində hüquq və azadlıqların dairəsi müəyyənləşdirirlərkən, informasiya texnologiyaları və rəqəmsallaşmanın təsir aspektləri nəzərə alınmış və informasiya sahəsində hüquq və azadlıqlara məlumat azadlığı, informasiya əldə etmək hüququ, yaradıcılıq azadlığı, fikir və söz azadlığı (ifadə azadlığı), ətraf mühitə dair informasiya almaq hüququ, internet əlyetərliyi hüququ daxil edilmişdir. Hüquq ədəbiyyatında mövcud olan əksər yanaşmalardan fərqli olaraq, şəxsi toxunulmazlıq hüququ (fərdi məlumatlarla əlaqəli olsa belə) informasiya sahəsində hüquqlar sırasına daxil edilməmişdir. Lakin şəxsin öz fərdi məlumatları ilə bağlı qanuni maraqlarından irəli gələn öz informasiyasının müqəddəratını təyinetmə hüququ və unudulmaq hüququ informasiya hüquqlarından biri kimi şərh edilmişdir.

Cari paraqrafda informasiya sahəsində hüquq və azadlıqların dairəsinin müəyyənləşdirilməsi məqsədilə informasiya sahəsi anlayışına hüquqi şərh verilmişdir. Bunun üçün informasiya sahəsində

[37] Castells, M. The Rise of the Network Society: The Information Age: Economy, Society and Culture. – Wiley, 2000. – 624 p.

qanunvericiliyə və Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsinə istinad olunaraq, informasiya sahəsinin informasiyanın toplanılması, axtarılması, işlənməsi, saxlanması, axtarılması, əldə olunması, ötürülməsi, yayılması, eləcə də məhv edilməsi ilə bağlı münasibətləri əhatə etməsi qəbul edilmişdir.

İnformasiya əldə etmək hüququ və məlumat azadlığının fərqləndirilməsi məqsədilə müəllif tərəfindən Hohfeldin yanaşmasına istinad edilir. Belə ki, informasiya əldə etmək azadlıq kimi qəbul olunarsa, fərdlər informasiya əldə etməkdə sərbəst hərəkət edə biləcək, lakin dövlətin və ya daha dar mənada hər hansı bir qurumun informasiya əldə etmək imkanlarını məhdudlaşdırmaqdan başqa heç bir vəzifəsi olmayacaqdır. Bu halda şəxsin bu məhdudiyyətə görə dövlətin məsuliyyəti ilə bağlı məhkəmə orqanlarına müraciət etməsi, məlumatın əldə edilməsinin yerinə yetirilməsini tələb etməsi mümkün deyil. İnformasiya əldə etmək hüquq kimi qəbul edilərsə, hüquq sahibinə başqa şəxslərdən, xüsusən də dövlətdən informasiya tələb etmək imkanı verilməklə, hüquq sahibi qarşısında borclu olan tərəflərin bu sorğu əsasında tələb olunan məlumat və sənədləri təqdim etmək öhdəliyi altında olması təmin edilir. Bu baxımdan, informasiya əldə etmək hüququ azadlıq kimi qiymətləndirilməməlidir. Lakin hüquq anlayışı azadlıqların təcəssümü olduğu üçün informasiya əldə etmək hüququ öz əsasını fikir və ifadə azadlığı, ünsiyyət azadlığı, məlumat azadlığı kimi mənbələrdən alır.

Dissertasiyanın **“İnformasiya sahəsində əsas insan hüquq və azadlıqlarının təminatının dövlətdaxili və beynəlxalq-hüquqi müdafiə mexanizmləri” adlı ikinci fəsli** üç paraqrafdan ibarətdir.

**“İnformasiya sahəsində əsas hüquq və azadlıqların beynəlxalq və milli hüquqda təsbiti” adlı birinci paraqraf** iki yarımparaqrafdan ibarət olmaqla, informasiya sahəsində əsas hüquq və azadlıqların müdafiəsinə dair beynəlxalq normalarla milli normaların müqayisəli təhlilinə əsaslanır.

Cari paraqrafda informasiya-hüquqi tənzimetmədə informasiya cəmiyyətinin qurulması və inkişafı üzrə qəbul olunmuş beynəlxalq-hüquqi sənədlər informasiya sahəsində hüquq və azadlıqlarının beynəlxalq-hüquqi tənzimlənməsi ilə bağlı təhlil edilir.

İnformasiya sahəsində milli qanunvericiliyin iki yolla inkişafı istiqaməti müəyyən edilir. Birinci yol şəraitdən asılı olaraq hüquq normalarının yaradılmasını və onların müxtəlif qanun və qanun qüvvəli aktlar altında sistemləşdirilməsini əhatə edir. Belə ki, informasiya cəmiyyətinin qurulması nəticə etibarilə cəmiyyətdə meydana çıxan yeni münasibətlərin hüquqi cəhətdən tənzimlənməsini zəruri etdi və bu da informasiya sahəsində bir çox normativ hüquqi aktların qəbulunu şərtləndirdi.

İkinci yol isə hüquq elminin doktrinal şərhləri əsasında yeni qanun layihələrinin işlənib hazırlanmasını və sonradan təcrübəyə tətbiqini nəzərdə tutur. Məsələn, informasiya hüquq münasibətlərinin kompleks xarakter daşımasını və bu münasibətlərin bir çox hüquq sahələrinin də tənzimetmə predmetinə aid olmasını təhlil edən hüquqşünas alimlər informasiya qanunvericiliyinin məcəlləşdirilməsi təklifini irəli sürürlər.

Dissertasiyada bildirilir ki, informasiya sahəsində hüquq və azadlıqların milli hüquqda tənzimlənməsinin başlıca problemi bu hüquqların rəqəmsallaşmadan hədsiz dərəcədə təsirlənməsindən irəli gəlir. Bu baxımdan, yeni texnologiyaların respublikamızda tətbiqi ilə bağlı problemləri şərti olaraq aşağıdakı kimi qruplaşdırılır: yeni hüquqi tənzimetmənin formalaşdırılması zərurəti; hüquqi qeyri-müəyyənlik və ya natamamlıq; qanunların "yaşlanması", yəni köhnəlməsi; yeni hüquqi anlayışların mövcud qanunvericilik aktları ilə uzlaşmaması.

Sadalanan problemlərin qarşısının alınması məqsədilə hüquqi təklif və tövsiyələrin təqdim olunması cari paraqrafın əsas məğzini təşkil edir.

**"İnformasiya hüquqlarının müdafiəsi üzrə beynəlxalq təşkilatların fəaliyyəti" adlı ikinci paraqrafda** BMT və onun təsisatlarının, regional təşkilatların informasiya hüquq və azadlıqlarının təminatında rolundan bəhs edilir. Burada qeyd edilir ki, BMT sülh, insan hüquqları, müstəqillik və inkişaf kimi fundamental prinsipləri rəhbər tutaraq, informasiya sahəsində yeni münasibətlərin tənzimlənməsi üzrə müxtəlif istiqamətlərdə fəaliyyət göstərir. Bu fəaliyyət həm əsas insan hüquq və azadlıqlarına daxil olan məlumat azadlığının beynəlxalq-hüquqi təsbiti və müdafiəsi ilə

bağlı özünü büruzə verir, həm də bütün dünya üzrə insanlar arasında bərabərliyin təmin olunması vəzifəsini qarşıya qoyur. Bərabərliyin təmin olunması isə nəticə etibarilə, dövlətlərin İKT-dən istifadə imkanlarının eyni səviyyəyə çatdırılmasını və cəmiyyətin bütün üzvlərinin informasiyaya çıxışının təminatını şərtləndirir.

BMT-nin elm, təhsil və mədəniyyət məsələləri üzrə ixtisaslaşdırılmış qurumu olan, öz fəaliyyətində fikir və ifadə azadlığına, kommunikasiya və informasiya problemlərinə xüsusi önəm verən UNESCO informasiya sahəsində formalaşmaqda olan münasibətlərin tənzimlənməsinə dair təklif və tövsiyələr verir.

BMT-nin digər bir qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) müəyyən etdiyi standartlar qlobal telekommunikasiya sisteminin möhkəmləndirilməsində mühüm əhəmiyyətə malikdir. Qurum genişzolaqlı İnternet şəbəkəsinin yaradılması ilə, İKT-yə, eləcə də İnternetə bərabərhüquqlu çıxış imkanını təmin edir. Bu məqsədlə BTİ həm ictimai, həm də özəl sektorla qarşılıqlı əlaqəli fəaliyyət göstərir.

İnsan hüquq və azadlıqlarının müdafiəsi üzrə bütün regional mexanizmlərin informasiya hüquqlarının realizəsi və təminatı ilə bağlı problemlərin tədqiqatında mühüm rolu vardır. Qlobal informasiya cəmiyyətinin qurulması ilə əlaqədar olaraq, bir çox beynəlxalq və regional təşkilatların fəaliyyətində informasiya münasibətlərinin tənzimlənməsinə dair istiqamətlər müəyyən olunmuşdur. Məsələn, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Ümumdünya İnformasiya Texnologiyaları və Xidmətləri Alyansı və s.

**"İnformasiya sahəsində əsas hüquq və azadlıqların təminatının milli müdafiə mexanizmləri" adlanan üçüncü paraqrafda** bildirilir ki, hər bir dövlət üzrə milli informasiya siyasəti ilk növbədə, hüquqi qaydada təsbit olunmalı və bu sahədə normativ baza yaradılmalıdır. Məhz həmin normativ mənbələr milli informasiya siyasətinin həyata keçirilməsi istiqamətlərini müəyyənləşdirir. Azərbaycan Respublikasında milli informasiya siyasəti bir sıra prinsiplər əsasında həyata keçirilir. Bu prinsiplər həm Azərbaycan Respublikasının Konstitusiyasına, həm də digər hüquq mənbələrinə əsaslanır.

Cari paraqrafda qeyd olunur ki, informasiya hüququnun bütün ümumi prinsipləri (insan hüquq və azadlıqlarının təminatı, hüquq və qanun qarşısında bərabərlik, qanunçuluq, sosial ədalət və s.) milli informasiya siyasətində də rəhbər tutulmalıdır. Bundan başqa, müvafiq sahəvi mənbələrə əsasən, milli informasiya siyasətinin bir sıra prinsipləri müəyyənləşdirilir: maarifləndirmə, şəffaflıq, bərabərlik, innovasiya, millilik, mərhələlilik, beynəlxalq əməkdaşlıq, liderlik və s. prinsiplər.

Dünya təcrübəsində informasiya hüquqlarının müdafiəsi üzrə ya müstəqil informasiya ombudsmanı təsisatı fəaliyyət göstərir, ya da Ombudsman Aparatında ayrıca bir şöbə formalaşdırılır. Həm qanunvericilik, həm də təcrübi baxımdan, Azərbaycanda informasiya hüquqları digər hüquqlarla bərabər qorunur və ayrıca təsisat yaradılmamışdır. Bir çox media nümayəndələri tərəfindən bu, o qədər müsbət qarşılanmasa da, hesab olunur ki, məlumat azadlığı əksər hallarda digər hüquqlarla qarşılıqlı şəkildə realizə olunduğu üçün müstəqil informasiya ombudsmanının yaradılmasına ehtiyac yoxdur. Sadəcə olaraq, Ombudsman Aparatında informasiya hüquqlarının müdafiəsi üzrə ayrıca bir şöbənin yaradılması, eləcə də ərazilər üzrə ayrı-ayrı regional mərkəzlərin sayının artırılması və onların əlaqələndirilmiş formada fəaliyyət göstərməsi daha məqsədəuyğundur.

**Dissertasiyanın üçüncü fəsli "İnformasiya sahəsində əsas hüquq və azadlıqların yeni cəmiyyətdə realizəsi: beynəlxalq və milli-hüquqi problemlər"** adlanır və beş paraqrafdan ibarətdir.

**Birinci paraqraf "Rəqəmsallaşma proseslərinin informasiya sahəsində hüquq və azadlıqların realizəsinə təsir istiqamətləri: ümumi aspektlər"** adlanır və rəqəmsallaşma proseslərinin, yeni texnologiyaların inkişafının informasiya sahəsində hüquq və azadlıqların həyata keçirilməsinə müsbət və mənfi təsir istiqamətlərinin təhlilini əhatə edir. Bu paraqrafda qeyd olunur ki, ümumilikdə, yeni texnologiyaların insan hüquqlarına təsirini aşağıdakı kimi xarakterizə oluna bilər:

Birinci istiqamətə əsasən, informasiyalaşma, avtomatlaşma prosesləri ənənəvi formada hüquqların realizəsinə mane olmur. Seçim şəxsin öhdəsinə verilir.

İkinci istiqamət ənənəvi hüquqların yeni elektron üsullarla realizəsini nəzərdə tutur. Məsələn, elektronlaşdırmanın təsiri əmək hüquqlarının realizəsində dəyişikliklərə gətirib çıxarmışdır. Elektron informasiya sistemlərindən istifadə hər bir kəsə öz əmək fəaliyyəti ilə bağlı məlumatları asanlıqla əldə etmək üçün əlverişli şərait yaradır. Bundan başqa, müasir cəmiyyətdə baş verən yeniliklər əmək münasibətlərinin distant əmək münasibətləri formasında inkişafına təkan vermişdir.

Üçüncü istqamət isə dövrün tələbindən irəli gələrək, yeni hüquqların formalaşmasını şərtləndirir. Məsələn, unudulmaq hüququ.

**İkinci paraqraf "Yeni texnologiyaların inkişafı və insan hüquqlarının təminatı prinsiplərinin pozulması halları: hüquqi və təcrübi problemlərin həlli yolları"** adlanır və burada yeni texnologiyaların tətbiqi zamanı insan hüquq və azadlıqlarının təminatına dair prinsiplərin pozulmasının qarşısının alınması məqsədilə təklif və tövsiyələr təqdim edilir. Müəllif tərəfindən qeyd olunur ki, süni intellektin tətbiqi üzrə bərabərsizlik və ayrı-seçkiliyə yol verilməsi əksər hallarda ənənəvi cəmiyyətin bərabərsizliklərindən qaynaqlanır. Ona görə də cəmiyyətdə məlumatlar bərabər şəkildə yaradılmır və ya toplanmır. Vilyam Gibsonun dediyi kimi, texnologiyalar biz onları tətbiq edənə qədər mənəvi baxımdan neytraldır. Ona görə də ayrı-seçkiliyin qarşısı kompleks tədbirlər vasitəsilə alına bilər.

Dissertasiyada yeni texnologiyaların tətbiqi üzrə mövcud bərabərsizlik və ayrı-seçkiliyin aradan qaldırılması yolları kimi aşağıdakılar təklif edilir: şəffaflıq testinə riayət olunması; rəqəmsal və ənənəvi fərqliliklərin aradan qaldırılması; hüquqi tənzimetmənin təkmilləşdirilməsi.

**"Elektron vətəndaş və informasiya hüquqlarının həyata keçirilməsinin yeni formaları" adlı üçüncü paraqrafda** elektron vətəndaşlığın elementləri informasiya hüquq və azadlıqlarının realizəsi müstəvisində təhlil edilir. Burada elektron vətəndaşlığın elementlərinin aşağıdakı formada müəyyən edilməsi tövsiyə olunur: elektron əlyetərlik; elektron təhlükəsizlik; elektron məsuliyyət; elektron hüquq və azadlıqlar; elektron iştirak.

Elektron əlyetərlik internetə çıxış imkanlarının təmin olunmasını, elektron bərabərsizliyin mövcud olmamasını nəzərdə tutur. Elektron təhlükəsizlik informasiyanın tamlığının, əlyetərliyinin və konfidensiallığının təmin olunmasını əhatə edir ki, elektron mühitdə iştirak edən vətəndaş onun hüquq və azadlıqlarının pozulmayacağından əmin olmalıdır. Elektron hüquq və azadlıqlar yeni formada və yeni şərtlər altında realizə olunan hüquq və azadlıqları, eləcə də yeni formalaşmış hüquqları ehtiva edir. Elektron vətəndaş öz əməllərinə görə məsuliyyət daşıdığını, elektron xidmətlərdən digər şəxslərin hüquqlarını pozmadan istifadə imkanına malik olduğunu bilməlidir.

Elektron İştirak İndeksi üç-səviyyəli model əsasında aşağıdakı meyarlar üzrə qiymətləndirilir: Elektron informasiya – internet vasitəsilə informasiya təminatını nəzərdə tutur; Elektron məsləhətləşmə – ictimaiyyət ilə məsləhətləşmələrin onlayn təşkilini, vətəndaşların ictimai müzakirələrə cəlb olunmasını ehtiva edir; Elektron qərar qəbul etmə – vətəndaşların qərar qəbul etmə prosesinə birbaşa cəlb edilməsini nəzərdə tutur.

**“Rəqəmsal bərabərsizlik informasiya sahəsində hüquqların həyata keçirilməsində başlıca maneə kimi: onun qlobal və lokal səviyyədə aradan qaldırılması yolları” adlanan dördüncü paraqrafda** rəqəmsal bərabərsizliyin informasiya hüquqlarının realizəsinə yaratdığı problemlər, eləcə də rəqəmsal bərabərsizliyin qlobal və lokal səviyyədə aradan qaldırılmasına dair məsələlər təhlil olunur. Müəllif tərəfindən bildirilir ki, rəqəmsal bərabərsizliyin aradan qaldırılması üsulları ikili funksiya daşımalıdır. Bir tərəfdən mövcud sosial, iqtisadi, siyasi, mədəni ziddiyyətlər həll edilməli, digər tərəfdən isə İKT-nin inkişafına təkan verilməlidir. Həm rəqəmsal bərabərsizliyin aradan qaldırılması İKT-nin inkişafı olmadan mümkün deyil, İKT-nin inkişafını léngidən faktorlar rəqəmsal bərabərsizliyi şərtləndirir. Həm də İKT-nin imkanlarından istifadə etməklə, bir çox sosial, iqtisadi, siyasi və mədəni problemləri həll etmək mümkün ola bilər. Nəticə etibarilə, hər iki istiqamətdə aparılan tədbirlər insan hüquq və azadlıqlarının təminatına xidmət edir. Belə ki, rəqəmsal bərabərsizliyin aradan qaldırılmasının ən başlıca və vacib vəzifəsi bərabərlik hüququnun təmin olunmasıdır.

Bərabərlik hüququ insanın əsas hüquq və azadlıqlarından biri olub, əksər hallarda digər hüquqların da normal həyata keçirilməsinə şərait yaradır. Təsadüfi deyil ki, bərabərlik BMT-nin Minilliyin Bəyannaməsində iyirmi birinci əsrin fundamental dəyərləri sırasında əks olunur, habelə qlobal problemlərin sosial ədalət və bərabərlik kimi fundamental prinsiplər əsasında həll edilməsi vəzifə kimi müəyyənləşdirilir. Deməli, rəqəmsal bərabərsizliyin hökm sürməsi bilavasitə insanların bərabərlik hüququnu pozmuş olur. Ona görə də bu problemin aradan qaldırılması insan hüquqlarının təminatına zəmanət verir.

Dissertasiyada qeyd olunur ki, ölkə daxilində rəqəmsal bərabərsizliyin aradan qaldırılmasına yönəlmiş tədbirlərin müvəffəqiyyətlə icrası onların mərhələlərlə planlaşdırılmasından irəli gəlir. İnformasiya cəmiyyətinin qurulması və inkişafı üzrə Strategiyalarda nəzərdə tutulan fəaliyyət istiqamətlərinin həyata keçirilməsi məqsədilə müxtəlif illər üzrə Dövlət Proqramları və Fəaliyyət Planları qəbul edilmişdir. Bütün bu proqram və planlar görüləcək tədbirləri məntiqi ardıcıllıqla illər üzrə müəyyənləşdirmişdir.

**Üçüncü fəslin beşinci paraqrafı "Rəqəmsal dünyada şəbəkə neytrallığının təminatı: informasiya hüquqları kontekstində müqayisəli-hüquqi təhlil"** adlanır və burada şəbəkə neytrallığına hüquqi anlayış verilərək, bununla bağlı müxtəlif dövətlərin təcrübəsinə və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – İHAM) qərarlarına istinad edilir. Burada qeyd edilir ki, internet provayderlərin internet trafikini idarə etmə üsullarının ifadə azadlığı kontekstində qiymətləndirilə biləcəyi qəbul olunsa da, digər tərəfdən dövlətin internet provayderlərin ifadə azadlığına müdaxiləsinin hədləri araşdırılmalıdır. Bu zaman sözügedən müdaxilə təbii ki, beynəlxalq normalarda nəzərdə tutulan məhdudlaşdırma şərtlərinə uyğun olmalıdır: qanunauyğun olmalı, legitim maraqlardan birini qorumalı, demokratik cəmiyyət üçün zəruri olmalıdır.

Müəllifin gəldiyi qənaətə görə, ilk növbədə, şəbəkə neytrallığı ilə bağlı dövlətdaxili hüquqda qanuni tənzimləmə olmalıdır. İstifadəçilər üçün şəbəkə neytrallığı internet məzmununa giriş və

şəffaflığı təmin edir və bütün internet xidmətlərinin və proqramlarının əlyetərliyinə imkan verir.

Şəbəkə neytrallığını xarici dövlətlərin və İHAM təcrübəsi əsasında təhlil edən müəllif hesab edir ki, internet provayderlərin şəbəkə neytrallığının qorunması kimi son istifadəçilərin hamısının hüquqlarına müsbət tərəfdən təsir edə bilən şəbəkə idarəçiliyi üsulları ictimai asayiş maraqları naminə edildiyi üçün internet provayderləri lehinə daha geniş müdafiənin təmin olunması məqsədəuyğun görünür. Lakin internet provayderlərin ictimai mənafe daşımayan, kommersiya məqsədli internet trafiki idarəetmələri dövlətlərin öz mülahizələri dairəsində olur.

**Dördüncü fəsil "Qlobal informasiya cəmiyyətində informasiya sahəsində ayrı-ayrı hüquq və azadlıqların təmin olunmasında milli qanunvericiliyin tətbiqi problemləri"** adlanır və dörd paraqrafı özündə birləşdirir.

**Birinci paraqraf "Məlumat azadlığının informasiya-hüquqi tənzimlənməsinin əsas xüsusiyyətləri"** adlanmaqla altı yarımparaqrafdan ibarətdir və burada informasiya məlumat azadlığının mərkəzi elementi kimi təhlil edilir, informasiyanın mahiyyəti, təsnifatı və hüquqi rejimi, informasiya əldə etmək hüququnun elementləri, informasiya əldə etmək hüququna dair milli-hüquqi tənzimləmədə olan problemlər və onların həlli yolları, ətraf mühitə dair informasiya almaq hüququ və onun hüquqi tənzimlənməsinin səciyyəvi xüsusiyyətləri, internet əlyetərliyi, öz informasiyasının müqəddəratını təyinetmə hüququ kimi məsələlər tədqiq edilir.

Cari paraqrafda qeyd edilir ki, informasiya əldə etmək hüququnun əhatə dairəsini müəyyənləşdirmək üçün onun elementlərinə nəzər salmaq lazımdır. Bu elementlər informasiya əldə etmək hüququnun yönəldiyi informasiyanın növü və hüquqi rejimindən asılı olaraq dəyişir. Bundan asılı olaraq informasiya əldə etmək hüququ iki formada həyata keçirilir: şəxsin özünə aid informasiyaya dair hüquqları və şəxsin başqa informasiyaları əldə etmək hüququ. Hər iki forma müxtəlif səlahiyyətləri özündə ehtiva edir və aşağıdakı hüquqları özündə birləşdirir: informasiya və

sənədlərə daxil olmaq hüququ; məlumat və sənədləri açıqlamaq hüququ.

Dövlətdaxili qanunvericilik aktları açıq informasiyanın anlayışı, açıqlanması üsullarını tənzim edən hüquq normalarını ehtiva edir. Həmin normaların şərhindən görünür ki, açıq informasiyaya daxil edilən məlumatların dairəsinin bu qədər geniş olmasında qanunvericinin əsas məqsədlərindən biri ölkə daxilində şəffaf cəmiyyətin qurulmasıdır. Təsadüfi deyil ki, formalaşan informasiya cəmiyyətinin ən vacib prinsipi bu cəmiyyətin hər kəs üçün açıq və əlyetər olmasından ibarətdir.

Qapalı informasiya növlərindən informasiya əldə etmək hüququnun ən çox problem yaranma halları fərdi məlumatlarla bağlı olur ki, bu, əksər hallarda şəxsi toxunulmazlıq, informasiya əldə etmək hüququ və ya ifadə azadlığı arasında mütənasibliyin təmin olunmasını tələb edir. Belə qəbul olunmuşdur ki, sorğu edilən məlumat və ya sənəd əlçatan olduqda, şəxsin faydası dövlətin və ya ictimaiyyətin təhlükəsizliyinə dəyəcək zərərdən və sorğu edən şəxsin müvafiq məlumatı əldə etməklə əldə edəcəyi maraqdan daha çoxdur və bu halda informasiya və ya sənəd sorğuçuya verilməlidir. Bununla belə, dövlətin və ya ictimaiyyətin təhlükəsizliyinə təhlükə törətmək ehtimalı fərdin maraqlarından üstündürsə, müvafiq məlumat və ya sənəd əlçatan olmamalıdır. Bu kontekstdə informasiya əldə etmək hüququnun əhatə dairəsi və hüdudları milli-hüquqi tənzimləmələrlə konkret müəyyən edilməlidir.

**“Fikir və söz azadlığının informasiya-hüquqi tənzimlənməsi”** adlanan ikinci paraqraf üç yarımparaqrafdan ibarət olmaqla, fikir və söz azadlığına dair beynəlxalq və milli hüquq normalarının müqayisəli təhlilini, onlayn ifadə azadlığına dair hüquqi tənzimləmədə problemləri, fikir və söz azadlığına (ifadə azadlığına) dair məhdudiyyətlərlə bağlı İHAM qərarları və milli təcrübənin müqayisəli-hüquqi təhlilini əhatə edir.

Cari paraqrafda müəllif qeyd edir ki, ifadə azadlığı məlumat azadlığı ilə eyniləşdirilməməlidir. İkinci daha geniş olub, məlumatların əldə edilməsi, axtarılması və s. bu kimi hüquqları da ehtiva edir. Ümumiyyətlə, ifadə azadlığı (və ya fikir və söz azadlığı) və məlumat azadlığını bir-birindən təcrid olunmuş formada təsəvvür

etmək mümkün deyil. İHAM-ın bir çox qərarlarının təhlilinə əsasən, bildirilir ki, əksər hallarda onlardan biri digərinin təminatında xüsusi əhəmiyyətə malik olur.

İfadə azadlığının əhatə dairəsi bu hüquq çərçivəsində hansı ifadələrin qorunması ilə bağlıdır. İfadə məfhumu mahiyyət etibarilə geniş məfhumdur və təfəkkür vasitəsilə formalaşan fikirlərin xarici aləmə ötürülməsi ilə formalaşır. Bu kontekstdə ideyaların, duyğuların və ya düşüncələrin necə yarandığını və ifadə azadlığının bu ifadə növlərindən hansını əhatə etdiyini qiymətləndirmək lazımdır. Əslində, ifadələrin xarici aləmdə əks olunmasının bir çox müxtəlif yolları ola bilər: simvolik, bədii, davranış və siyasi ifadələr.

Onlayn ifadə azadlığının əhatə dairəsi ilə bağlı vurğulanmalı olan əsas problemlərdən biri internet əlyetərliyinin ifadə azadlığı çərçivəsində hüquq olub-olmamasıdır. Çünki Estoniya, Fransa, Kosta-Rika, Finlandiya, Malta, İsveçrə, Kanada və s. dövlətlərdə internetə çıxış fərqli texniki xüsusiyyətlərə malik olsa da, hər bir şəxs üçün bir müstəqil hüquq kimi müəyyən edilmişdir. Çünki əksər hallarda onlayn ifadə azadlığının məhdudlaşdırılması internetə çıxışın məhdudlaşdırılması və ya qadağan edilməsi ilə müşahidə edilir. Bu ikitərəfli ola bilər. Bir tərəfdən, hüquq pozduğu güman edilən sosial media vasitəsinə çıxışa məhdudiyyət qoyulmasıdırsa, digər tərəfdən, şəxslərin internet xidmətlərindən istifadə imkanlarına məhdudiyyətlərin müəyyən edilməsidir. Birinci hal üçün 2006-cı ildə yaradılmış WikiLeaks saytını misal göstərmək olar. Əksər dövlətlər, o cümlədən Türkiyə Cümhuriyyəti ictimai maraqlara zidd olan zərərli məzmun yaratması və paylaşması səbəbilə bu sayta girişi bloklamışdır.

**Üçüncü paraqraf** iki yarımparaqrafı əhatə edərək, **“Yaradıcılıq azadlığının təminatının hüquqi və təcrübi aspektləri”** adlanır və burada yaradıcılıq azadlığının mahiyyəti və səciyyəvi xüsusiyyətləri, yaradıcılıq azadlığı və informasiya mədəniyyəti arasında qarşılıqlı əlaqə kimi məsələlər şərh olunur.

Konstitusion qaydada yaradıcılıq azadlığının bəyan olunması (Azərbaycan Respublikası Konstitusiyasının 51-ci maddəsi) insan hüquq və azadlıqlarını nəzərdə tutan beynəlxalq normalara söykənir. Beynəlxalq normaların məzmunundan görünür ki, burada üç mədəni

hüquq – mədəniyyət hüququ, yaradıcılıq azadlığı və əqli mülkiyyət hüququ nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Konstitusiyasında isə qeyd olunan bu hüquq və azadlıqlar ayrı-ayrı maddələrdə əks olunmuşdur. Konstitusiyasının 40-cı maddəsi mədəniyyət hüququnu təsbit edir, 51-ci maddə yaradıcılıq azadlığının rəhbər müddəalarını müəyyənləşdirir, 30-cu maddə isə əqli mülkiyyət hüququnu nəzərdə tutur. Sadalanan hüquq və azadlıqların beynəlxalq mənbələrdə eyni maddə çərçivəsində bəyan olunması onların bir-biri ilə qarşılıqlı əlaqəli olmasından irəli gəlir. Maraqlı cəhət onunla bağlıdır ki, beynəlxalq normalarda yaradıcılıq azadlığı və əqli mülkiyyət hüququ mədəniyyət hüququnun nəzərdə tutulduğu maddənin tərkibində əks olunmuşdur. Eyni zamanda mədəniyyət hüququ (right to culture) anlayışı altında şəxsin yalnız mədəni həyatda iştirakı və mədəni sərvətlərdən istifadəsi deyil, həmçinin elmi tərəqqidə iştirak etməsi, elmi yaradıcılıq fəaliyyəti ehtiva olunur.

Mədəni həyatda müxtəlif formalarda iştirak edən şəxsin yaradıcılıq fəaliyyəti ilə məşğul olması onun öz istəyindən asılıdır. Əgər bu istək reallaşdırılarsa, yaradıcılıq azadlığı realizə edilmiş sayıla bilər və bundan sonra artıq əqli mülkiyyət hüququ ilə bağlı məsələlər meydana çıxmış olur.

Dissertasiyanın dördüncü fəslinin **son paraqrafı "İnformasiya sahəsində əsas hüquq və azadlıqların digər hüquqlarla qarşılıqlı əlaqəsi"** adlanır və üç yarımparaqrafı əhatə edir. Burada insanın şəxsi həyatı sferasında məlumat azadlığının sərhədlərinin hüquqi tənzimlənməsinin yolları və imkanları, unudulmaq hüququnun yeni texnologiyaların inkişafından irəli gələn hüquq kimi şərhi, vicdan azadlığı və informasiya hüquqlarının qarşılıqlı əlaqəsi kimi məsələlər tədqiq edilir.

Şəxsi həyatın toxunulmazlığı hüququ ona görə informasiya hüquqları ilə bağlı mövzu çərçivəsində şərh olunur ki, informasiya əldə etmək hüququnun realizəsi zamanı ən çox toqquşduğu hüquq məhz şəxi həyatla əlaqədardır. Şəxsi həyatın toxunulmazlığı ilə informasiya əldə etmək hüququ arasında fikir ayrılığı olduqda, hansı hüququn digərindən üstün olduğunu ölçmək üçün heç bir meyar yoxdur. İnformasiya əldə etmək hüququ ilə şəxsi toxunulmazlıq

hüququ arasında ziddiyyətin mənbəyi fərdlərin informasiya və ya şəxsi toxunulmazlıq hüququnun hüquqi müdafiəyə layiq olub-olmaması məsələsidir. Belə ki, informasiya əldə etmək hüququ vasitəsilə şəxsin şəxsi həyatı ilə bağlı məlumatın üçüncü şəxslərə verilməsi və bununla da informasiyanın media vasitələri vasitəsilə ictimaiyyətə açıqlanması şəxsi hüquqlara zidd olacaqdır. Digər tərəfdən, məlumat şəxsin şəxsi həyatına aid olduğu üçün məlumat sorğusu rədd edilən şəxsin informasiya almaq hüququnun qarşısı alınacaqdır. Göründüyü kimi, bu hüquqlardan birinin istifadəsi digərinin pozulması ilə nəticələnə bilər.

Maraqların toqquşması zamanı nəzərə alınmalı olan məsələ ictimailiyin və şəxsin razılığının olub-olmamasıdır. Demək olar ki, bütün hüquq sistemlərində qəbul olunmuşdur ki, şəxsin ictimai məkanda (istər oflayn, istərsə də onlayn) açıqladığı fərdi məlumatların əldə olunmasına məhdudiyyət qoyulmur. Əksər dövlətlərdə ictimai yerlərdə foto və ya video çəkmək konstitusiyaya uyğundur. Dövlət insanlara şəxsi həyatın toxunulmazlığı hüquqlarını versə də, əgər onlar ictimai yerlərdədirsə, heç kimin qeyd olunan hüququ yoxdur. Gördüyümüz kimi, paparassilər məşhurları ictimai yerlərdə təqib edirlər, lakin heç vaxt məhkəməyə verilmirlər. Həmçinin küçə fotoqrafları ictimai yerlərdə tez-tez şəkil çəkdirirlər.

Şəkillərin kommersiya və qeyri-kommersiya məqsədli istifadəsini bilmək zəruridir. İctimai yerdə çəkilmiş istənilən fotoşəkillər qeyri-kommersiya məqsədləri üçün istifadə edilə bilər. Ümumi fotoqrafiya şəxsi həyatın toxunulmazlığı ilə bağlı heç bir problem yaratmasa da, şəxsi olaraq çəkilmiş fotonu istifadə etmək olmaz.

Unudulmaq hüququ əvvəllər daha çox şəxsi toxunulmazlıq kontekstində müdafiə olunurdu. Lakin unudulmaq hüququnu şəxsi toxunulmazlıq hüququ ilə eyniləşdirmək olmaz. Unudulmaq hüququ şəxsin keçmişdə törətdiyi hər hansı neqativ əmələ görə damğalanmadan, qınaq obyektinə çevrilmədən müstəqil şəkildə özünü inkişaf etdirmək və həyatına davam etmək istəyindən irəli gəlir. Şəxsi toxunulmazlıq hüququ ümumi məlum olmayan, yəni konfidensial məlumatları ehtiva edirsə, unudulmaq hüququ isə müəyyən vaxtda məlum olan məlumatların silinməsi və üçüncü

şəxslərin həmin məlumatı əldə etməsinə icazə verilməməsi kimi başa düşülür.

Sharenting (paylaşım) problemini valideynin ifadə azadlığı ilə uşağın şəxsi toxunulmazlıq hüququ istiqamətində şərh edərkən, müəllif hesab edir ki, cari beynəlxalq və milli normalarda uşağın onlayn təhlükəsizliyi ilə bağlı valideyn paylaşımlarına dair heç bir məhdudiyyət yoxdur (Fransa istisna olunur[38]) və uşağın bu paylaşımlarına razılığının vacibliyi adekvat qorunma və yüksək məlumatlılığa çatdırılmamışdır. Üstəgəl, uşağın yaşının az olmasından irəli gələrək, onun razılığının alınması məsələsi də məntiqsiz görünür. Sosial şəbəkə saytlarının risk əsaslı yanaşma ilə gördüyü tədbirlərlə tətbiqin yaratdığı təhlükələr nisbətən azalsa da, təəssüf ki, problemin aradan qaldırılması üçün kifayət deyil. Sosial şəbəkə platformaları dizayndan etibarən uşaqlar üçün uyğunluq şərtlərini hazırlasa belə, istifadəçi uşaq olmadığı halda bu qoruma müddəaları öz məqsədinə çata bilməz. Bu baxımdan, sharentingin qarşısının tamamilə alınması mümkün deyil. Problemin əsas həll yolları sırasında valideynlərin bu sahədə maarifləndirilməsi ola bilər. Eyni zamanda, sonradan uşaq üçün problemlər formalaşdırmasın deyə, sosial şəbəkə platformalarında paylaşım üçün məzmun qaydalarında çılpaq və ya qismən çılpaq uşaqların foto və videolarını paylaşmağa məhdudiyyət qoyulmalıdır. Çünki belə məzmunlar xoş niyyətlə paylaşılsa da, başqaları tərəfindən gözlənilməz şəkildə istifadə oluna bilər.

**Dissertasiyanın nəticə hissəsində** tədqiqatın yekunu olaraq əldə edilmiş nəticələr 22 bənddə müəyyən edilmişdir:

1. İnformasiya cəmiyyətinin formalaşması və informasiyanın bütün sferalarda rolunun dəyişməsi informasiya sahəsində hüquq və azadlıqların təminat mexanizmləri ilə bağlı tənzimləmələrin yenidən işlənib hazırlanmasını zəruri etmişdir. Hər şeydən əvvəl, məhz hansı hüquq və azadlıqların informasiya sahəsində hüquq və azadlıqlar

---

[38] Proposition de loi n°84, adoptée par l'Assemblée nationale visant à garantir le respect du droit à l'image des enfants. [Elektron resurs]. URL: https://www.assemblee-nationale.fr/dyn/16/textes/l16t0084_texte-adopte-seance [son daxil olma tarixi: 11.12.2023]

altında şərh olunmasını müəyyənləşdirməyi qarşıya məqsəd qoyduq. Nəzəri yanaşmaların təhlili nəticəsində bu hüquq və azadlıqların informasiya texnologiyaları, telekommunikasiya fəaliyyəti ilə bağlı aspektlərini istisna etdik və sırf informasiyanın bilavasitə obyekt kimi çıxış etdiyi hüquq və azadlıqların dairəsini müəyyənləşdirdik. Lakin burada informasiyanın istifadə məqsədi əsas götürülən məqam kimi qəbul olunur. Məhz ona görə də bir çox müəlliflərdən fərqli olaraq, biz informasiya sahəsində hüquqlar sırasına şəxsi toxunulmazlıq hüququnu deyil, yalnız fərdi məlumatlar üzərində idarəetmə səlahiyyətləri ilə bağlı bəzi törəmə hüquqları daxil etdik. Belə ki, tərəfimizdən informasiya sahəsində hüquq və azadlıqlar qismində aşağıdakılar qəbul edilmişdir: məlumat azadlığı; informasiya əldə etmək hüququ; yaradıcılıq azadlığı; fikir və söz azadlığı (ifadə azadlığı); ətraf mühitə dair informasiya almaq hüququ; internet əlyetərliyi hüququ; öz informasiyasının müqəddəratını təyinetmə hüququ; unudulmaq hüququ.

2. Hesab edirik ki, artıq informasiya cəmiyyəti ifadəsi özü dövrün tələblərinə cavab vermir. Biz bu ifadənin rəqəmsal cəmiyyət anlayışı ilə də əvəz olunmasının tərəfdarı deyilik və bunu öz tədqiqatımızda əsaslandırmışıq. Fikrimizcə, daha uğurlu UNESCO tərəfindən əsası qoyulmuş bilik cəmiyyəti ideyasıdır. Çünki ayrı-ayrı cəmiyyətlərdə olan dil və mədəni fərqliliklər qlobal informasiya məkanına çıxış üçün maneə rolunu oynayır. Bilik cəmiyyətinə keçməklə bu cür fərqliliklərin qarşısını almaq mümkündür. Çünki bilik cəmiyyətləri elə bir cəmiyyətlərdir ki, onların mənbəyini fərdi müxtəliflik və fərdi bacarıqlar təşkil edir.

3. Tərəfimizdən informasiya sahəsi geniş və dar mənada qiymətləndirilmişdir. Geniş mənada informasiya sahəsi informasiyanın axtarışı, əldə olunması, saxlanması, istehsalı, emalı, ötürülməsi, yayılması, məhvi, utilizasiyası üzrə münasibətləri, informasiya texnologiyalarının tətbiqi üzrə münasibətləri və informasiyanın mühafizəsinin təşkili, informasiya təhlükəsizliyi üzrə münasibətləri ehtiva edir. Lakin tədqiqat mövzumuz çərçivəsində bizi dar mənada verilən şərh maraqlandırır ki, informasiya sahəsi informasiyanın toplanılması, axtarılması, işlənməsi, saxlanması, axtarılması, əldə olunması, ötürülməsi, yayılması, eləcə də məhv edilməsi ilə bağlı

münasibətləri əhatə edir. Araşdırma zamanı məhz bu münasibətlər üzrə ayrı-ayrı şəxslərin informasiya hüquq və azadlıqları tədqiq olunmuşdur.

4. Məlumat azadlığının və informasiya əldə etmək hüququnun mahiyyətinin tam təhlili nəticəsində belə bir təklif irəli sürülmüşdür ki, Məlumat azadlığı haqqında Qanunun əksər normaları bir tərəfdən dövrün tələbinə cavab vermir, digər tərəfdən daha müasir dövlətdaxili normalarda öz əksini tapmışdır. Bu baxımdan, həmin Qanunun ləğvini məqsədəmüvafiq sayırıq.

Digər bir məsələ sırf informasiya əldə etmək azadlığı termini ilə əlaqədar özünü büruzə verir. Azadlıq və hüquq anlayışlarına dair müqayisəli təhlillərin nəticəsi olaraq informasiya əldə etmək hüququ ifadəsinin daha düzgün olduğu qəbul edilmişdir.

5. İnformasiya əldə etmək hüququnun bilavasitə obyekti olan informasiyanın hüquqi rejiminə görə təsnifatı ilə bağlı problemlər bu hüququn realizəsi üçün hüquqi və təcrübi problemləri formalaşdırır. İnformasiyanın qanunvericilik qaydasında açıq və qapalı informasiyaya bölgüsü hər iki növ üçün fərqli hüquqi tənzimetməni şərtləndirmişdir. Qanunvericiliyin təhlilindən görünür ki, sirri təşkil edən müxtəlif növ qapalı məlumatların məzmunu, onlardan istifadə qaydaları və qorunması mexanizmləri ilə bağlı bəzi ziddiyyətli məqamlar vardır. Bu, əsasən xüsusi və ümumi informasiya hüquq normalarının tətbiqi zamanı meydana çıxır. Ona görə də əldə olunması məhdudlaşdırılan məlumatlarla bağlı normalara yenidən baxılması və sirr anlayışı ilə ehtiva olunan bütün qapalı informasiya növlərinə daxil olan məlumatların dairəsinin dəqiqləşdirilməsi, məsuliyyət məsələlərinin hərtərəfli tənzimlənməsi məqsədəmüvafiqdir. Nəticə etibarilə, qanunvericilikdə konfidensial informasiyaya aşağıdakı kimi anlayış verilməsini təklif edirik: Konfdensial informasiya fiziki və hüquqi şəxslərin qanuni maraqlarının qorunması məqsədilə əldə edilməsinə məhdudiyyət qoyulan məlumatlardır.

6. Qapalı informasiyanın məzmunu ilə bağlı fərqli qaydalar müəyyən edilmişdir. "İnformasiya əldə etmək haqqında" Qanuna əsasən, informasiyanın əldə olunması sorğu əsasında təmin edilir. Nə yazılı, nə də şifahi informasiya sorğusunun təmin edilməsi ilə bağlı

normalarda informasiya sorğusunun predmetinə dair birbaşa göstəriş müəyyən edilməmişdir. Ümumilikdə, qeyd olunan qanuna görə, bu predmetə informasiya sahiblərində olan sənədləşdirilmiş məlumatların daxil edilməsi nəticəsinə gəlmək olar. Lakin bu da birmənalı şəkildə qəbul edilməməlidir. Çünki Qanunda informasiya sorğusunun predmetinə dair bəzi məhdudiyyətlər nəzərdə tutulmuşdur (maddə 2.4-1; 4.2.1). Qanun dövlət sirrini təşkil edən məlumatların informasiya sorğusunun predmetindən istisna olunmasını imperativ qaydada əks etdirir. Fikrimizcə, informasiya sorğusuna dair məhdudiyyətlərin qoyulması informasiyaya olan hüquqların pozulması kimi qiymətləndirilməməlidir. Beynəlxalq normaların özündə də bir neçə əsaslar üzrə hüquq və azadlıqların məhdudlaşdırılması məqbul sayılır. Bu baxımdan, hesab edirik ki, milli qanunvericiliklə müəyyən edilmiş məhdudiyyətlər beynəlxalq əsaslara söykənir. Lakin burada başlıca problem konfidensial informasiyanın anlayışının və məzmununun, eləcə də ayrı-ayrı informasiya növlərinin qeyri-dəqiq hüquqi tənzimlənməsi ilə bağlıdır. Müxtəlif informasiya sirlərinin sərhədləri qanunvericilik baxımdan toqquşur və lüzumsuz təkrarçılıqlar meydana çıxır. Məsələn, xidməti sirr və istintaq sirləri, peşə sirri və xidməti sirr və s. Bu cür qeyri-dəqiqliyin qarşısının alınması üçün hansı növ qapalı informasiyanın yayılmasına görə sanksiya nəzərdə tutulmuşdursa, məhz həmin informasiyanın da konfidensiallığının tanınması vacibdir.

7. Süni intellektin tətbiqi informasiya hüquqları baxımdan özü ilə bir çox yeni texniki və hüquqi anlayışlar və terminlər gətirir. Bir çox hallarda həmin terminləri mövcud qanunvericilik aktlarına uyğun istifadə etmək çətin olur. Məsələn, ən vacib etik prinsiplər sırasında tanınan privacy sözünün Azərbaycan dilində tərcüməsi gizlilik, məxfilik mənasını verir. Gizlilik hüquqi termin olmadığı üçün məxfilik anlayışından istifadə etməliyik. Bu isə qanunvericilik baxımdan düzgün deyil. Çünki "İnformasiya əldə etmək haqqında" Qanuna əsasən, əldə edilməsi qanunla məhdudlaşdırılan informasiyalar hüquqi rejiminə görə məxfi və gizli (konfidensial) kimi fərqləndirilir. Məxfi informasiyaya dövlət sirrini təşkil edən məlumatlar daxildir. Əgər biz məxfilik prinsipini qəbul etsək, onda

bütün informasiyalar üçün məxfi məlumatlara aid qaydaları şamil etməliyik. Bu isə həm konfidensial və məxfi məlumatlar arasında həddi pozmuş olacaqdır, həm də hüquqi tənzimetmədə qarışıqlıq yaradacaqdır. Ona görə də privacy sözünə konfidensiallıq ifadəsi ilə qarşılıq verməli oluruq. Bu kimi hüquqi problemlərin aradan qaldırılması üçün yeni terminlərə qanunvericinin yanaşması mövcud qanunlara uyğunlaşdırılmış şəkildə verilməlidir.

8. Məlumat azadlığının əhatə dairəsi onun elementlərinin məcmusu ilə əhatə olunur. Beynəlxalq və milli normaların müqayisəli təhlilinə əsasən deyə bilərik ki, Konstitusiyamızda sadalanan elementlər daha geniş məzmuna malikdir. Belə ki, ARK-nın 50-ci maddəsinə əsasən, bu elementlərə məlumatları axtarmaq hüququ, əldə etmək hüququ, ötürmək hüququ, hazırlamaq hüququ və yaymaq hüququ daxildir. 1966-cı il Paktı və 1948-ci il Bəyannaməsi üç elementi nəzərdə tutur: informasiyanı axtarmaq, əldə etmək və yaymaq hüquqları. Avropa Konvensiyası daha məhdud yanaşma təqdim edərək, yalnız məlumatları almaq və yaymaq hüquqlarını təsbit edir. Qeyd etmək lazımdır ki, respublikamızda cari informasiya qanunvericiliyini təhlil etsək, informasiyanın ötürülməsi ayrı-ayrı fiziki şəxslərin hüququ kimi deyil, müvafiq informasiya sahiblərinin qanunla müəyyən edilmiş çərçivədə səlahiyyəti kimi şərh olunmalıdır (Fərdi məlumatlar haqqında Qanunun 2.1.8, 2.1.16 və 14-cü maddələri). Sual yarana bilər: Söhbət şəxsin öz fərdi məlumatlarını ötürməsindən gedirsə, ötürmək hüququ kimi qəbul edilə bilərmi? – Qanunvericilikdə informasiyanın yayılması o qədər geniş məzmunda verilmişdir ki, bu, elə şəxsin özü haqqında məlumatlarını başqa şəxslərə çatdırmasını da ehtiva edir (2.1.12-ci maddə). O ki qaldı informasiyanı hazırlamaq hüququna, bu element yaradıcılıq azadlığının və əqli mülkiyyət hüququnun məzmununa daxildir. Ona görə də hesab edirik ki, Konstitusiyanın 50-ci maddəsinin I bəndindən hazırlamaq, ötürmək sözlərinin çıxarılması daha düzgün olar.

9. Tədqiqat zamanı informasiya əldə etmək hüququnun elementləri aşağıdakı kimi təsvir olunaraq təhlillər aparılmışdır: Birinci qrup elementlər dövlətin informasiyanı açıqlamaq vəzifəsini, dövlətin qapalı informasiyanı qorumaq vəzifəsini və informasiyanın

hüquqi rejimini əhatə edir. İkinci qrup elementlər isə şəxsin özünə aid informasiyaya olan hüququnu, başqalarına dair informasiyaya olan hüququ və açıq informasiyaya olan hüququ ehtiva edir.

10. Müasir informasiya sahəsində hüquq və azadlıqlar sırasına internet əlyetərliyi hüququnu da daxil etmişik. Əslində, İnternet access sözünün hərfi tərcüməsi internetə çıxış kimi ifadə olunsa da, daha məqbul variant kimi əlyetərlik sözünə üstünlük verdik. Pulsuz internetə çıxışın insan hüququ hesab edilməsi fikrini qəbul etmək üçün ciddi səbəblərimiz vardır. Çünki bu, rəqəmsal dövrdə minimal layiqli həyatı təmin etmək üçün lazımdır. İnternetə çıxış sınaqdan keçirilmiş vasitələrlə ödənişsiz olmalıdır. Zəngin cəmiyyətlərdə internetə çıxış sosial minimumun bir hissəsi hesab edilməlidir. Bu isə o deməkdir ki, bir çox qabaqcıl cəmiyyətlərdə bütün vətəndaşların telefon əlaqəsi hüququ olduğu kimi, hər kəsin adekvat İnternet bağlantısı hüququ olmalıdır. Belə qanunvericilik artıq bəzi dövlətlərdə (məsələn, Almaniyada) mövcuddur.

Öz şanlı tariximizə müraciət etsək, 44 günlük müharibə dövründə aparılan informasiya müharibəsini xüsusi vurğulamalıyıq ki, beynəlxalq səviyyədə qərarlara təsir etmək baxımdan İnternetə çıxışın rolu və əhəmiyyəti danılmazdır. İnternetə çıxışın olması qlobal formada təsir etmək üçün rəsmi imkanlar təqdim edən rəsmi kanal olmasa da, bu, fərdlərin kollektiv şəkildə təsir göstərə bilməsi üçün effektiv bir vasitədir. Ona görə də İnternet əlyetərliyi qlobal sferada mənalı hesabatlılıq və təsir kanalı təklif etdiyi üçün universal hüquq kimi tanınmalıdır.

Nəzərə alsaq ki, "İnformasiya əldə etmək haqqında" Qanunun göstərişinə əsasən, açıq informasiyanın açıqlanması üçün imperativ üsul internet informasiya ehtiyatlarında açıqlanma hesab olunur (maddə 30.1) və digər üsullardan istifadə məcburi deyil (29.2-ci maddədə "açıqlana bilər" nəzərdə tutulmuşdur), deməli cəmiyyət üzvlərinin açıq informasiyaya çıxışının təminatı üçün internet əlyetərliyi mütləq şəkildə təmin olunmalıdır.

11. Bir çox hüquqlar kimi, informasiya əldə etmək hüququnun digər hüquqlarla və bəzi qanunla qorunan maraqlarla ziddiyyət təşkil etdiyi hallar mövcuddur. Məlumat və sənədlərin əldə edilməsində şəxslərin maraqları dövlətin və başqa şəxslərin fərdi

maraqları ilə tarazlaşdırılmalıdır. Bir-birinə zidd olan və rəqabət aparan maraq və mənafelərdən hansının üstünlüyünün müəyyən edilməsi hüquq və azadlıqların həyata keçirilməsi baxımından həyati əhəmiyyət kəsb edir. İnformasiya əldə etmək hüququndan istifadə ilə bağlı bəzi istisnaların nəzərdə tutulması da sözügedən hüququn balanslaşdırılmış istifadəsi ilə sıx bağlıdır. İnformasiya əldə etmək hüququnun hüdudlarını bilməyən şəxs bu hüququnu həyata keçirməkdə çətinlik çəkəcək və ya ən azı bu hüquqdan səmərəli istifadə edə bilməyəcəkdir. Hüquqdan səmərəli və məqsədlərinə uyğun istifadə etmək üçün onun əhatə dairəsini bilmək vacibdir. Ona görə də digər hüquq və azadlıqlar kimi məlumat azadlığına dair məhdudiyyətlərin də konkret müəyyən olunması vacibdir. Tədqiqat zamanı istinad edilmiş beynəlxalq normalarda bu cür məhdudiyyətlər sadalansa da, Azərbaycan Konstitusiyasında nə 50-ci maddədə, nə də 47-ci maddədə bu barədə tənzimləmə yoxdur. Yalnız "İnformasiya əldə etmək haqqında" Qanunun 2.4-1-ci maddəsinin məzmunundan belə məhdudiyyətlərin dairəsini müəyyənləşdirmək olur ki, bu normanın özündə də qeyri-dəqiqlik mövcuddur. Məsələn, dövlətin maraqlarının dairəsi müəyyən olunarkən, xarici-siyasi, kəşfiyyat və əks-kəşfiyyat kimi strateji maraqlar normadan kənarda qalmışdır. Ona görə də hesab edirik ki, konstitusion qaydada məhdudiyyətlərin dairəsi beynəlxalq normalara uyğun formada müəyyən olunmalıdır.

12. Ətraf mühit məsələlərinə dair xalqın maarifləndirilməsi texnikası bir çox beynəlxalq ekoloji sazişlərlə dövlətlərin üzərinə qoyulan pozitiv öhdəlikdir. Ətraf mühitin mühafizəsi yolu ilə inkişafı təmin etmək, yəni davamlı inkişafa nail olmaq üçün fərdlər ekoloji məlumat almaq hüququndan istifadə edərək ekoloji qərarların qəbulu prosesində söz sahibi olmalıdırlar. Yanlış məlumatlandırma nəticəsində atılan addımlar ətraf mühitin çirklənməsinin daha da artmasına səbəb olacaqdır. Deməli, ətraf mühitə dair informasiya almaq hüququnun məzmununa daxil olan ətraf mühitlə bağlı informasiya açıq və qapalı olaraq təsnifləşdirilməlidir. Dövlətlərin üzərinə qoyulmuş öhdəlik açıq informasiya ilə bağlıdır. Bunun üçün dövlətlər inteqrasiya olunmuş ekoloji informasiya sistemləri yaratmalıdırlar. Ətraf mühitlə bağlı məlumatların toplanması, paylanması və təhlili sistemləri yaradılmalı və bu sistemləri işlədəcək

mütəxəssislər yetişdirilməlidir. Lakin qapalı informasiya ilə bağlı isə müxtəlif sorğuların verilməsi ilə bu hüquq reallaşdırılır ki, bu zaman qanunla nəzərdə tutulmuş qaydalara riayət edilməsi mütləqdir.

13. Azərbaycan Respublikası Konstitusiyasının 47-ci maddəsində yalnız hər kəsin fikir və söz azadlığı bəyan olunur. Beynəlxalq normalarda təsbit olunmuş ifadə azadlığı daha geniş məzmuna malikdir, çünki həmçinin şəxsin informasiya və bilik mübadiləsi üzrə hüquqlarını ehtiva edir. Beynəlxalq normalarda hər iki hüququn eyni maddədə təsbitinin başlıca səbəbi onların sıx əlaqəsindən irəli gəlir. Deməli, ifadə azadlığının beynəlxalq normalar əsasında tənzimlənməsi daha uğurlu təcrübə kimi sayıla bilər. Bu baxımdan, əslində Konstitusiyanın 47-ci maddəsinin adının Fikrini ifadə etmək azadlığı kimi adlandırılması, 50-ci maddənin I bəndindən məlumat azadlığı ilə bağlı təklifdə qeyd etdiyimiz anlayışların çxarılması və 50-ci maddənin II bəndinin 47-ci maddəyə əlavə olunması daha məqsədəmüvafiqdir.

14. Tədqiqat zamanı şəxsi toxunulmazlıq hüququ ilə bağlı məqamlara aydınlıq gətirilməsinin əsas məqsədi informasiya hüquqlarının, xüsusilə də informasiya əldə etmək hüququnun və ya ifadə azadlığının əksər hallarda şəxsi toxunulmazlıq hüququ ilə toqquşmasından irəli gəlir. Çünki bir tərəfdə insanın şəxsi və ailə həyatının qorunması vacibdirsə, digər tərəfdə hər bir kəsin istənilən məlumatı əldə etmək hüququ təmin olunmalıdır. Ona görə də şəxsi toxunulmazlıq hüququnun məzmunu dəqiq müəyyən olunmalıdır ki, məhz hansı məlumatların əldə olunması və yayılmasına məhdudiyyətlərin qoyulması məsələsi konkretləşdirilsin. Milli konstitusiyamızda şəxsi toxunulmazlıq hüququna dair 32-ci maddənin o qədər də uğurlu olmadığını hesab edirik. Bir tərəfdən, məhdudiyyətlər natamam şəkildə yalnız IV bənddə yazışma sirri üçün nəzərdə tutulmuşdur. Digər tərəfdən isə VII bənddə şəxsi həyata aid məlumatların nəzərdə tutulmasını və ailə həyatının diqqətdən kənarda qalmasını heç bir səbəblə əsaslandırmaq mümkün deyil. Bundan əlavə, əqidə, dini və etnik mənsubiyyətlə bağlı informasiya zatən şəxsi həyata dair məlumat olduğu üçün bu növ informasiyanın xüsusi vurğulanması da çox ziddiyyətli görünür.

Qeyd olunanları nəzərə alaraq, ARK-nın 32-ci maddəsinin yenidən işlənməsinə və müvafiq dəyişikliklərin edilməsinə zərurət vardır.

15. Şəxsi toxunulmazlıq hüququ ilə məlumat azadlığının toqquşduğu əsas məqam hər kəsin daha çox məlumatı bilmək istəyindən, qarşı tərəfin isə əksinə şəxsi və ailə həyatının gizli qalmasını istəmək tələbindən irəli gəlir. Təsadüfi deyil ki, ölkə daxilində mövcud olan bütün qanunvericilik normalarında şəxsin özünün razılığı olmadan (yəni gizli) onun video çəkilişinə, fotosunun çəkilməsinə və ya səs yazısına icazə verilmir. Belə yazı və çəkilişlərə yalnız qanunda nəzərdə tutulmuş hallarda və qanunla müəyyən olunmuş qaydada yol verilir. Burada əsas məsələ foto və video çəkilişinin məlumat azadlığının məzmununa daxil olması ilə əlaqədardır. Konstitusion qaydada məlumatların qanuni yolla əldə olunması yolverilən olduğu üçün belə çəkilişləri də məlumat mənbəyi kimi qiymətləndirə bilərik. Hesab edirik ki, qanunvericilikdə ictimai yerlərdə belə çəkilişlərin aparılması ilə bağlı normanın olmaması sonradan mübahisələndirmə predmeti olub-olmayacağını sual altına alır. Qanunvericilik aspektindən baxsaq, şəxsin fotosu əksər dövlətlərdə, eləcə də İHAM təcrübəsində şəxsi həyata dair məlumat sayılsa da, respublikamızda belə tənzimləmə nəzərdə tutulmamışdır. Ona görə də ictimai yerlərdə şəkli və ya videosu çəkilmiş şəxsin bununla bağlı hansı hüquqlara malik olacağı tam dəqiq deyil. Tədqiqat zamanı müxtəlif xarici dövlətlərin təcrübəsinə nəzər saldıq və daha uyğun təcrübə kimi Almaniya, Rusiya və Türkiyənin tənzimləməsini məqbul sayırıq. Belə ki, ictimai yerlərdə çəkilişə yalnız o halda icazə verilə bilməz ki, şəxs belə çəkilişin əsas obyekti olsun. Həmçinin həmin çəkilişin sonradan kommersiya məqsədi ilə istifadəsi də yolverilən deyil. Eyni zamanda, burada istisnalar da öz əksini tapmalıdır. Məsələn, cinayətlə bağlı kadrların icazəsiz yayımlanması, uşaqların valideynin və ya qəyyumunun icazəsi olmadan tam aydınlıqla kadra alınması. Bu kimi məsələlərin qanunvericilikdə öz əksini tapması zəruridir.

16. Avropa və Anqlo-Sakson təcrübəsinə əsasən, belə qənaətə gəlmək olur ki, məlumatların informasiya sistemindən sildirilməsi hüququ unudulmaq hüququ ilə eyniləşdirilir. Belə ki, Fərdi Məlumatların Qorunmasının Ümumi Qaydalarının 17-ci

maddəsində sildirmək hüququnu nəzərdə tutan maddənin adında mötərizədə right to be forgotten yazılmışdır. Fikrimizcə, Fərdi məlumatlar haqqında Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan xüsusi kateqoriyalı məlumatlar (irqi və yaxud milli mənsubiyyətə, ailə həyatına, dini etiqada və əqidəyə, səhhətə və ya məhkumluğa aid məlumatlar) məhz unudulmaq hüququnun məzmunu ilə bağlıdır. Analoji norma Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanın 6-cı maddəsində də nəzərdə tutulmuşdur.

Həmçinin Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinin VII bəndində ailə həyatına aid məlumatların daxil edilməməsi özü də bir qədər mübahisəlidir. Əslində, mövcud problemlərin əsası milli qanunvericilikdə fərdi məlumata dolğun anlayış verilməməsindən irəli gəlir. Fərdi məlumat dedikdə, şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumatı nəzərdə tutan qanunverici (Fərdi məlumatlar haqqında Azərbaycan Respublikası Qanunu) informasiya sahəsində digər normalarda fərdi məlumatları şəxsi və ailə həyatına dair məlumatların məcmusu kimi qiymətləndirir. Xüsusi kateqoriyalı məlumatları unudulmaq hüququnun predmetinə daxil olan məzmun kimi qəbul etsək, o zaman Konstitusiyanın 32-ci maddəsinin VII bəndinin də redaktəsi daha düzgün olar. Beləliklə, Azərbaycan Respublikasının qanunvericiliyi məlumatların silinməsi hüququnu unudulmaq hüququ ilə eyniləşdirmir. Əslində, fərdi məlumatların məzmununa yuxarıda qeyd etdiyimiz redaktələrin edilməsi ilə xüsusi kateqoriyalı məlumatların unudulmaq hüququ ilə ehtiva olunması mümkün olar. Sadəcə burada bir məqamı unutmamaq lazımdır. Unudulmaq hüququ kütləvi informasiya vasitələrindən və internet informasiya ehtiyatlarından məlumatların silinməsi ilə məhdudlaşmalıdır. Burada dövlət informasiya sistemlərində mövcud olan məlumatların tamamilə məhvindən söhbət getmir. Məsələ burasındadır ki, Fərdi Məlumatların Qorunmasının Ümumi Qaydaları da hər iki hüququ eyni maddə altında birləşdirsə də, dolayısı ilə verilənlərin silinməsi hüququnu tənzimləyir. Çünki məlumat (verilən) subyektinə nəzarətçidən (controller) onunla əlaqəli fərdi

məlumatların silinməsini həddindən artıq gecikdirilmədən əldə etmək hüququnu və nəzarətçinin Qaydalarda göstərilən əsaslardan birinin tətbiq olunduğu hallarda şəxsi məlumatları ləngimədən silmək məcburiyyətində olmasını nəzərdə tutur. Nəzarətçi adı altında isə Qaydalar fərdi məlumatların işlənməsinin məqsəd və vasitələrini təkbaşına və ya başqaları ilə birlikdə müəyyən edən fiziki və ya hüquqi şəxs, dövlət orqanı və ya digər qurumları birləşdirir. Deməli, hər hansı bir sosial şəbəkədən illər sonra şəxsin məhkumluğu barədə xəbəri çıxarıb onun şəxsi həyatına mənəvi zərər yetirildiyi hallarda Qaydalar unudulmaq hüququnu müdafiə etməyəcəkdir.

17. Problem ondadır ki, öz fərdi məlumatlarının silinməsini istəyən şəxs bunun üçün bütün müvafiq subyektlərə müraciət etməlidir. Dövlətdaxili səviyyədə bu, o qədər çətin iş deyil. Lakin söhbət ayrı-ayrı yurisdiksiyalara aid subyektlərə silinmə üçün müraciət etmədən gedirsə, artıq bu zaman çətinliklər meydana çıxacaqdır. Çünki məlumatların hələ də vebsaytın başqa bir hissəsində tapıla biləcəyi mümkündür. Bundan əlavə, məlumatlar hələ də ehtiyat məlumat daşıyıcılarında və ya bulud yaddaşında saxlanıla bilər ki, bunun qarşısını almaq praktiki olaraq mümkün deyil. Nəhayət, hələ naməlum üçüncü tərəflərin şəxsi nüsxələri saxlaması və bu nüsxələrin gələcəkdə internetə qoyulması ehtimalı da qalmaqdadır. Bu baxımdan, unudulmaq hüququnun informasiya sistemləri ilə əlaqələndirilməsi heç də düzgün deyil. Çünki informasiya sistemlərinin fəaliyyəti dövlətlərin daxili yurisdiksiyası altına düşür, lakin internet məkanından məlumatların silinməsi artıq sərhədləri bilinməyən kiberməkana aiddir. Ona görə də unudulmaq hüququ ilə bağlı beynəlxalq hüquqi normaların dəqiq qəbul edilməsi və dövlətlərin bu normaları milli təcrübədə tətbiqi ilə bağlı addımların atılması gərəkdir.

18. Dövrün aktual problemi olan sharenting (paylaşım) valideynin ifadə azadlığı ilə uşağın şəxsi toxunulmazlıq hüququnu qarşı-qarşıya qoyur. Əslində müxtəlif məqsədlərlə (qidalanma, uşağın inkişafı və s.) edilən paylaşımlarda əksər hallarda valideyn uşağa ziyan vurmaq niyyətində olmur. Valideynlər tərəfindən uşağın foto və videolarının sosial şəbəkələrdə paylaşılmasını tamamilə qadağan etmək ifadə azadlığının əsassız məhdudlaşdırılmasına

gətirib çıxara bilər. Əgər uşaq yetkinlik dövrünə çatdıqdan sonra həmin paylaşımların üçüncü şəxslər tərəfindən izlənməsini istəməzsə, bu istəyi unudulmaq hüququ kontekstində mübahisələndirə bilər. Lakin dövrümüzdə bir çox hallarda uşaqların (xüsusilə yeni doğulmuş) çılpaq və ya qismən çılpaq foto və videolarının valideynlər tərəfindən sosial şəbəkələrdə görüntüləndiyinin şahidi oluruq və bu, bilavasitə şəxsi toxunulmazlıq hüququnun əhatə dairəsinə daxildir. Hesab edirik ki, İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Qanunun 13-2.3.6-cı maddəsində (yayılması qadağan olunmuş informasiyaların siyahısında) "o cümlədən uşaqların çılpaq və ya qismən çılpaq görüntülərini əks etdirən məlumatlar" ifadəsinin əlavə olunması məqsədəuyğundur.

19. Azərbaycan Respublikasında informasiya qanunvericiliyinin məcəlləşdirilməsinə zərurət duyulur və bunu şərtləndirən bir sıra amillər vardır. Birincisi, informasiya cəmiyyətinin qurulması və inkişafı nəticəsində meydana çıxan münasibətlərin hüquqi tənzimlənməsində bir sıra problemlər üzə çıxır. Bu həm informasiya sahəsində fəaliyyətin geniş aspektli olması ilə, həm də eyni münasibətlərin digər sahəvi hüquq normaları ilə nizamlanması ilə əlaqədardır. Belə ki, məhz hansı növ münasibətlərin informasiya-hüquqi tənzimetmənin predmetinə daxil olduğunu konkretləşdirmək və təcrübədə yaranan boşluq və ziddiyyətləri aradan qaldırmaq məqsədilə informasiya sahəsində vahid qanunvericilik aktının qəbul edilməsi daha məqsədəuyğun sayılır. Eyni zamanda, informasiya hüquq elminin və təcrübənin ümumiləşdirilməsi nəticəsində təkmilləşdirilmiş normaların informasiya məcəlləsində öz əksini tapması zəruridir. Digər bir səbəb qismində informasiya hüququnun terminoloji aparatının dəqiq müəyyən olunması və qanunvericinin buna öz münasibətini bildirməsi zərurəti ilə bağlıdır. Məlum olduğu kimi, İKT-nin inkişafı yeni terminlərin leksikona daxil edilməsi ilə nəticələnmişdir. Bu kimi terminlərə qanunvericilik qaydasında vahid formada anlayış verilməsinə zərurət yaranmışdır. Doğrudur, informasiya sahəsində olan qanunvericilik aktlarında bir çox anlayışlar nəzərdə tutulmuşdur. Sadəcə olaraq, əksər hallarda təkrarçılığa yol

verilməməsi və daha ətraflı şərhin verilməsi üçün vahid məcəllənin qəbul edilməsi məqsədəmüvafiqdir.

20. Fikrimizcə, müasir mənada elektron vətəndaşın şərhi üçün təklif olunmuş doqquz elementlə (rəqəmsal çıxış və əlyetərlik, rəqəmsal ticarət, rəqəmsal kommunikasiya, rəqəmsal savadlılıq, rəqəmsal etiketlər, rəqəmsal hüquq, rəqəmsal hüquq və vəzifələr, rəqəmsal səhiyyə, rəqəmsal təhlükəsizlik) bağlı dəyşikliklər nəzərdə tutulması məqsədəuyğundur. Məsələn, rəqəmsal səhiyyə və rəqəmsal ticarətin ayrıca element kimi ayrılması, digər hüquq və azadlıqların isə rəqəmsal hüquq və vəzifələr çərçivəsinə daxil edilməsi bir qədər düzgün deyil. Elektron vətəndaşlığın elementlərinin aşağıdakı formada müəyyən olunmasını təklif edirik:

- Elektron əlyetərlik;
- Elektron təhlükəsizlik;
- Elektron məsuliyyət;
- Elektron hüquq və azadlıqlar;
- Elektron iştirak;

21. Elektron vətəndaş və qlobal vətəndaşın fərqləndirilməsi lazımdır. Qlobal vətəndaş həm milli, həm də beynəlxaq səviyyədə cəmiyyət həyatında aktiv iştirak edən, eyni zamanda başqalarına və ətraf mühitə qarşılıqlı anlayışla yanaşan bir şəxs olub, ənənəvi vətəndaşdan və elektron vətəndaşdan fərqli olaraq, bir dövlətin yurisdiksiyası ilə məhdudlaşmır. Həmçinin virtual insandan fərqli olaraq, qlobal vətəndaş yalnız qlobal şəbəkə – İnternetlə əlaqələndirilməməlidir. Təbii ki, bu, qlobal vətəndaşın aktivliyinin artmasında internetin rolunu təkzib etmir. Qeyd olunanların ümumiləşdirilməsi nəticəsində deyə bilərik ki, elektron vətəndaş və qlobal vətəndaş hər ikisi yeni dövrün anlayışları olsa da, onlar arasında bir sıra fərqli cəhətlər vardır:

- Elektron vətəndaş informasiya cəmiyyətinə keçidlə əlaqədar elektron dövlət quruculuğunun nəticəsində formalaşmışdır. Qlobal vətəndaş qloballaşma və qlobal məqsədlərdən irəli gələrək formalaşmışdır;

- Elektron vətəndaş hər hansı bir dövlətin yurisdiksiyası ilə məhdudlaşır, yəni elektron vətəndaş konkret dövlət tərəfindən elektron hüquq və azadlıqlarını realizə edən və vəzifələr daşıyan

şəxsdir. Qlobal vətəndaş transmilli xarakterə malikdir, bir dövlətin sərhədləri ilə məhdudlaşmır;

- Elektron vətəndaşlıq hüquqla təsbit olunan davranış qaydaları çərçivəsində mümkündür. Qlobal vətəndaşlıq sosial məzmun daşıyır, sosial məsuliyyəti və səlahiyyətləri ilə səciyyələnir.

22. İnformasiya sahəsində hüquq və azadlıqların realizəsinə maneə yaradan səbəblərdən biri də rəqəmsal bərabərsizlikdir. Tədqiqatda rəqəmsal bərabərsizliyin informasiya bərabərsizliyinə gətirib çıxaran faktorları, eləcə də ənənəvi cəmiyyətdə mövcud olan iqtisadi, siyasi, sosial bərabərsizliklər və onların informasiya hüquqlarına yaratdığı maneələr ətraflı tədqiq olunmuşdur. Belə ki, informasiya cəmiyyəti quruculuğu əsas etibarilə, bütün cəmiyyət üzvlərinin informasiyalaşma prosesində aktiv iştirakını nəzərdə tutduğu üçün burada rəhbər prinsip əsas insan hüquq və azadlıqlarının təminatından ibarətdir. İqtisadi cəhətdən zəif inkişaf etmiş dövlətin vətəndaşı informasiya aktivliyi ilə xarakterizə oluna bilməz. Çünki hər şeydən əvvəl, insan yeni şəraitdən öz gəlir mənbələrini artırmaq məqsədilə istifadə edir. Bu baxımdan, informasiya iqtisadiyyatı informasiya hüququnun əsas tədqiqat obyektlərindən birini təşkil edir. Məhz informasiya cəmiyyətinin ona nə kimi töhfələr verdiyini anlayan cəmiyyət üzvü iqtisadi maraqlara daha çox üstünlük verir. Həmin maraqların hüquqauyğun olması iqtisadi hüquqların realizəsində vacib faktor hesab olunur.

Hesab edirik ki, dövlətdaxili hüquqda əhalinin həvəsləndirilməsi sahəsində tədbirlərə daha çox diqqət yetirilməlidir. Çünki məhz həvəsləndirici tədbirlər nəticəsində cəmiyyətin sadə təbəqələrində İKT-yə maraq oyatmaq olar. Ona görə də ayrı-ayrı fərdlər arasında rəqəmsal bərabərsizliyin aradan qaldırılması üzrə həm ümumi, həm də xüsusi müxtəlif tədbirlər siyahısının müəyyənləşdirilməsi daha məqsədəmüvafiqdir. Son dövrlərdə aparılan informasiya siyasətinin nəticəsidir ki, ölkə daxilində vətəndaşlar müxtəlif sosial şəbəkələrdən istifadə etməklə alqı-satqı və s. kommersiya xidmətləri göstərir və ya bu xidmətlərdən istifadə edirlər. Lakin e-ticarəti tənzimləyən müxtəlif qanunların qəbul edilməsinə baxmayaraq, hələ də bu sahədə tənzimlənmə mexanizmində problemlər vardır və vergidən yayınma halları çoxluq

təşkil edir. Bununla bağlı, yalnız Azərbaycanda deyil, bütün dövlətlərdə e-ticarətin subyektlərinin fəaliyyətinin vaxtaşırı monitorinqinin aparılması məqsədəuyğundur.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Yaradıcılıq azadlığının realizəsində informasiya-hüquqi aspektlər: beynəlxalq və konstitusion tənzimetmə // "Dövlət atributlarından Konstitusiyaya" adlı respublika elmi-praktiki konfransının materialları, - 12 noyabr 2019-cu il. s. 33-37.
2. Понятие информации, ее социальная, правовая природа и специфические особенности / Алиев А.И., Ибрагимова А.Н. // - Lublin: Fundacja "Ośrodek Rozwoju Kompetencji Akademickich" area nauki, kwartalne międzynarodowe czasopismo naukowe - 2019. с. 4-16.
3. Информационное общество и тенденции его развития / Ибрагимова А.Н. // - Волгоград: Актуальная наука: международный научный журнал, - 2019. №1 (18), с. 69-75
4. Digital age, globalization: Ensuring economic rights in the new information society // Law Review of Kyiv University of Law, 2019. №3, - pp. 115-128.
5. Information and media rights in the information society: social and legal analysis / Ibrahimova A.N., Aliyev A.I., Alakbarova N.A. // - Warsaw: XIV international scientific and practical conference social and economic aspects of education in modern society, - 2019. pp. 41-49.
6. Усовершенствование механизмов развития и реализации прав человека в контексте развития глобального информационного общества // - Kiev: X International Scientific Conference «Juridical Science Innovative Development in Conditions of Social Modernization», - February 28th, 2020. с. 180-182.
7. Meaning and position of human dignity in the constitution - theoretical and dogmatic dimensions / Ibrahimova A.N., Aliyev A.I., Mammadrzali S.S. // Global human dignity project, - 2020. pp. 1-11.

8. Information security: theoretical, legal and organizational challenges / Ibrahimova A.N., Aliyev A.I. // Journal of Information Science, - 2020. Vol.8, - pp.1-14.
9. Digital divide as an obstacle to the formation of information society / Ibrahimova A.N., Aliyev A.I. // - Baku: Proceedings of the 7 th international conference on control and optimization with industrial applications, - 2020. pp. 107-110.
10. Digital citizen and information security / Ibrahimova A.N. // - Baku: Proceedings of the 7 th international conference on control and optimization with industrial applications, - 2020. pp. 326-329.
11. Qapalı informasiya və informasiya əldə etmək hüququnun realizəsi // Azərbaycan Hüquq Jurnalı, - 2020. №2, - s. 96-105.
12. Information creativity as a right in the digital society // - Vilnius university: 8th International Conference of PhD Students and Young Researchers – "The future decade of the EU law", - 2020. pp. 180-192.
13. Protection of human rights violated by cybercrimes in global information society // Науковий вісник Дніпропетровського державного університету внутрішніх справ, - 2020. №2, - pp. 35-41.
14. Organization of information security in e-government as means of information rights protection / Ibrahimova A.N. // Legal Journal "Law of Ukraine", - 2020. №4, - pp. 225-244.
15. Freedom of creativity and information security culture: interrelationships / Aliyev A.I. // - Kiev: XI International Scientific Conference «Modern law in the era of social transformation», - 2021. pp. 119-122.
16. The impact of new technologies on human rights in the context of the right to be forgotten and the right to privacy / Ibrahimova A.N. // Legal Journal "Law of Ukraine", - 2021. №2, - pp. 125-150.
17. Artificial intelligence and personal data: international and national framework / Ibrahimova A.N., Aliyev A.I. // PHRG Journal of University of Padova, - 2021. Vol 5, Issue 1, - pp.97-123.

18. Information rights and information security in the context of fair trial / Ibrahimova A.N., Aliyev A.I. // International Asian congress on contemporary, - 2021. pp. 124-167.
19. Rəqəmsal bərabərsizliyin aradan qaldırılması üzrə istiqamətlər: Əsas insan hüquq və azadlıqlarının təminatı // Polis Akademiyasına Elmi Xəbərləri elmi hüquq jurnalı, - 2021. №1 (29), - s. 35-43.
20. Robot yoxsa insan: Süni intellekt sistemlərinin insan hüquqlarına təsir istiqamətləri // Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanın inkişaf strategiyası" adlı respublika elmi-praktiki konfransının materialları, - 07 may 2021-ci il. s. 48-52.
21. Süni intellekt sistemlərinin tətbiqində bərabərlik, ayrı-seçkiliyə yol verməmə vacib şərt kimi // Azərbaycan Prokuroru Jurnalı, - 2021. s. 57-64.
22. Qloballaşma və rəqəmsallaşma: qlobal vətəndaş və ya elektron vətəndaş // "Müasir dövrdə daxili işlər orqanları üçün kadr hazırlığını həyata keçirən xüsusi təyinatlı ali təhsil müəssisələri: mövcud vəziyyət və perspektivləri" adlı beynəlxalq elmi-praktiki konfrans, - 26 may 2021. s. 73-77.
23. E-dövlətdə informasiya təhlükəsizliyinin təşkili və informasiya hüquqlarının müdafiəsi / İbrahimova A.N. // Polis Akademiyasının elmi xəbərləri elmi hüquq jurnalı, - 2021. №1 (30), - s. 96-112.
24. Virtual məkanda kibertəhlükələr və insan hüquqlarının müdafiəsi: beynəlxalq və milli-hüquqi tənzimetmə / İbrahimova A.N. // Azərbaycan hüquq jurnalı, - 2021. №1, - s. 42-65.
25. Electronic identity or human: Problems in legal regulation // - Baku: Proceedings of the 8th international conference on control and optimization with industrial applications, - 2022. Vol II, - pp. 414-416.
26. New technologies and new rights: basic principles // - Baku: International conference: XXI century, new challenges and modern development tendencies of law, - 2022. pp. 366-376.

27. Onlayn mediada ifadə azadlığına dair məhdudiyyətlər: İHAM qərarları və milli təcrübənin müqayisəli-hüquqi təhlili / Əliyev Z.H. // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfrans, - 19 mart 2023. s. 205-220.
28. Qlobal informasiya cəmiyyətində informasiya iqtisadiyyatı və insan hüquqlarına təsir aspektləri // Azərbaycan Hüquq Jurnalı, - 2023. №2, - s. 12-24.
29. Rəqəmsal dünyada şəbəkə neytrallığının təminatı: insan hüquqları kontekstində müqayisəli-hüquqi təhlil // Polis Akademiyasının elmi xəbərləri elmi hüquq jurnalı, - 2023. №1 (37), - s. 163-173.

Dissertasiyanın müdafiəsi "07" iyun 2024-cü il tarixində saat 11:00 Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən BED 2.44 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı ş., Zahid Xəlilov-33. I korpus, auditoriya 608.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "02" may 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:

Kağızın formatı: A5

Həcm:

Tiraj: 100